

**Andrey Kortunov: "Bakının Brüsseldə veto hüququ var, xüsusən də, söhbət Azərbaycanın ərazisindən gedirsə"**

15



SƏS
№ 226 (6426) 10 dekabr 2021-ci il. Qiymıəti 40 qəpik

# Regionların inkişafına dövlət dəstəyi



2

# Ermənistanın son tranzit ümidləri necə puç oldu?




Bakı, Tbilisi və Tehran Fars körfəzi vasitəsilə İran üzərindən Ermənistana, oradan Qara dənizə, ardınca isə Avropaya daşınacaq yüklərin tranzit məsələsində yağlı nöqtə qoyublar Ermənistanın "Şimal-Cənub" tranziti ilə bağlı arzuları İranın son qərarı ilə puç oldu. Artıq məlumatlara görə, Bakı, Tbilisi və Tehran Fars körfəzi vasitəsilə İran üzərindən Ermənistana, oradan...

13




## "Media subyektlərinə 5 il müddətində vergi güzəştləri tətbiq oluna bilər"

Medianın İnkişafı Agentliyində görüş keçirilib

4

# "Barselona" rəzil oldu: Avropa Liqasında oynayacaq...

"Barselona"nın UEFA Çempionlar Liqasındakı 17 illik seriyası başa çatıb. SİA xəbər verir ki, 2004/05 mövsümündən başlayaraq hər il qrupdan çıxmağı bacaran İspaniya nəhəngi bu dəfə 3-cü yerin sahibi kimi Avropa Liqasına yollanıb. Barselonanın eyniadlı...



16

## Sərhəddə vəziyyət yenidən gərginləşib: Ordumuz bu əraziləri nəzarətə götürüb



10




# 10 DEKABR ZƏFƏR PARADI - Qarabağın statusunun olmayacağının Azadlıq meydanında nümayişidir

3



## Ordumuzun Qarabağda məhv etdiyi erməni polkovnik 90-cı illərin hərbi canilərindən olub

7

Ermənistan mediası Azərbaycan Ordusunun Qarabağda məhv etdiyi "məşhur" polkovnik Sergey Şakaryan haqqında...



## Yerli seçkilərdəki məğlubiyyət Paşinyana nə vəd edir?

4

Ermənistanda yerli özünüidarəetmə orqanlarına keçirilmiş seçkilər barədə gəlinən ilkin nəticələr paralel olaraq özündə bir sıra...

# Regionların inkişafına dövlət dəstəyi

## Prezidentin Qubaya səfəri regionların inkişafına olan diqqətin əyani təzahürüdür

2003-cü ildən etibarən Azərbaycanın iqtisadi sahədə həyata keçirdiyi siyasətin uğurlarını şərtləndirən əsas amillərdən biri də məhz inkişafın mərkəz və regionlar üzrə tarazlı xarakter daşıması, rentabelli istehsal sahələrinin ölkənin bütün regionlarını əhatə etməsi, yerli resurslardan istifadənin səmərəliliyinin artırılması, infrastrukturun yeniləşdirilməsi tədbirləri ilə sıx şəkildə bağlıdır. Məhz bu iqtisadi strategiya regionlarda sahibkarlığın inkişafını sürətləndirməklə, oradakı əmək ehtiyatlarından, təbii və iqtisadi potensialdan səmərəli istifadə edilməsinə imkan yaratmışdır. Hazırda Azərbaycanın hər bir rayonu, kəndi, qəsəbəsi inkişaf, tərəqqi dövrünü yaşayır. Bütün rayonlar arasında sağlam rəqabət gedir. Rayonların sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması, o cümlədən infrastruktur layihələri ilə bağlı bir çox sərəncamlar imzalanıb. Bu sərəncamlar bölgələrimizdə yüksək nəticələrə yol açıb. Çünki məqsəd insanların rahat, yüksək rifah şəraitində yaşamasını təmin etməkdən ibarətdir.



### BÖLGƏLƏRƏ HƏR SƏFƏR YENİ UĞURLARIN TƏMƏLİ VƏ MÜJDƏSİDİR

Məhz dekabrın 6-da Prezident İlham Əliyevin Quba rayonuna səfərini rayonun yeni uğurların təməlinin qoyulması kimi dəyərləndirilməlidir. Səfər çərçivəsində Quba Olimpiya İdman Kompleksində yenidənqurma, əsaslı təmir və tikinti işlərindən sonra yaradılan şəraitlə tanış olub, "Quba ABAD Factory" qablaşdırma vasitələrinin istehsalı müəssisəsinin, Quba-Qonaqkənd avtomobil yolunun açılışını edib.Dövlət başçısı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Heydər Əliyev Fondu tərəfindən Qubanın Birinci Nügədi kəndində inşa olunmuş 1 nömrəli tam orta məktəbdə, Qonaqkənd qəsəbəsində yeni inşa olunan Mədəniyyət Evində yaradılan şəraitlə tanış olublar.Dövlət başçısı səfər zamanı Qonaqkənd qəsəbəsinin sakinləri ilə görüşüb və camaatın yaşı yaşamasından rahatlıq duyduğunu söyləyib.

### "GƏLMİŞƏM BURAYA. BU GÖZƏL HADİSƏNİ SİZİNLƏ QEYD EDİRƏM"

"Bu kəndin Azərbaycan tarixində çox böyük yeri var, tarixi yerdir, tarixi yaşayış məskənidir. Bilirəm ki, Qonaqkənd camaatı həmişə zəhmətkeş olub, həmişə mərd olub, həmişə Azərbaycan dövlətçiliyinin keşiyində durub. Onu da bilirəm ki, bu kəndin əsas problemi yol problemi idi. Doğrudan da bu yolun çəkilməsi hesab edirəm ki, tarixi hadisə sayıla bilər. Quba rayonunda əhəmiyyət baxımından bir Xınalıq yoludur, bir də Qonaqkənd yolu idi. Xınalıq yolu da keçilməz bir yol idi, oraya da gedib çatmaq üçün saatlarla vaxt lazım idi və qış aylarında, ümumiyyətlə, təcrid vəziyyətində idi. Qonaqkənd də...İndi Qubadan buraya təxminən yarım saata gəlmişəm". Dövlət başçısı onu da bildirib ki, bu yolun çox böyük əhəmiyyəti var: "Bəli, buraya gələrkən yol boyunca gördüm, kəndlərdə yeni evlər tikilir. Bura çox gözəl turizm zonasıdır. Bu yol olmadığı üçün buraya turist də gəlmirdi. Əminəm ki, indi bu gözəl mənzərəli yerlərdə çox gözəl istirahət zonaları, otellər, ictimai yerlər yaradılacaq. Yəni, Qubanın bu hissəsi canlanacaq. Buna şübhəm yoxdur".

### "HƏR BİR AZƏRBAYCAN VƏTƏNDAŞI ÖZ ƏMƏYİ İLƏ, ÖZ İŞİ İLƏ QƏLƏBƏMİZİ YAXINLAŞDIRIRDI"

"Qarabağ müharibəsində qazanılmış Qələbə hamımızın Qələbəsidir. Hər bir Azərbaycan vətəndaşı öz əməyi ilə, öz işi ilə o müqəddəs günü yaxınlaşdırırdı. Biz bütün işğal dövründə Qarabağı ürəyimizdə saxlamışdıq və Qarabağı görməyən gənc nəsil yetişdi. Onlar Qarabağı canı-qanı bahasına azad etdilər. Tarixi ədaləti bərpa etdik, xalqımızın ləyaqətini bərpa etdik. İndi isə artıq yeni dövr başlayır". Bu fikirləri Prezident İlham Əliyev Quba rayonunun Qonaqkənd qəsəbəsində sakinlərlə görüşündə söyləyib.

Qarabağda və Zəngəzurda quruculuq işlərinin aparıldığını qeyd edən dövlətimizin başçısı deyib: "Bizim son vaxtlar apardığımız işlər onu göstərir ki, hər hansı bir revanşist meyil olarsa, onun məsələsi dərhal yerindəcə həll olunacaq. Çünki müharibədən sonra Ermənistan tərəfindən bir neçə dəfə belə cəhdlər oldu və onun acı nəticələrini onlar özləri gördülər. Ona görə hələ ki, gec deyil, mən onlara artıq dəfələrlə müraciət edərək demişdim, bizim şərtlərimizi qəbul etməlidirlər, yollarla, kommunikasiyalarla bağlı hər hansı bir qeyri-səmimi yanaşmaya son qoyulmalıdır".

### "BİZƏ TARİX VERSİNLƏR, ZƏNGƏZUR DƏHLİZİ NƏ VAXT AÇILACAQ VƏ BELƏ OLAN HALDA, HEÇ BİR PROBLEM OLMAYACAQ"

"Mən demişdim ki, bizə tarix versinlər torpaqlarımızdan nə vaxt çıxır, o an biz dayanmağa hazırıq. Bu gün də eyni sözü deyirəm. Amma deyirəm ki, bizə tarix versinlər, Zəngəzur dəhlizi nə vaxt açılacaq və belə olan halda, heç bir problem olmayacaq. Ona görə hesab edirəm ki, həm Ermənistan rəhbərliyi, həm Ermənistan ictimaiyyəti, əhalisi bunu başa düşməlidir. Biz istədiyimizə nail olmuşuq, oluruq və olacağıq. Yaxşı olar ki, bu məsələ konstruktiv şəkildə danışıqlar yolu ilə, qarşılıqlı anlaşma yolu ilə həll olunsun. Çünki İkinci Qarabağ müharibəsi bütün dünyaya xalqımızın iradəsini, gücünü və birliyini göstərdi. Yol boyunca gələndə gördüm, şəhidlərin şəkilləri vurulub. Hər bir yerdə belədir, - mən son vaxtlar Qarabağ bölgəsinə tez-tez gedirəm, - kəndlərdə şəhidlərin şəkilləri vurulub. Yəni, bu Zəfəri bütün Azərbaycan xalqı əldə edib. Hər bir vətəndaş, hər bir rayon sakini, hər bir nümayəndə. Ona görə bu, tarixi hadisədir və cəmi bir il keçib üstündən, görün nə qədər böyük işlər görmüşük. Mən Qarabağ, Zəngəzur bölgəsinə bəlkə də 10 dəfədən çox getmişəm. Amma, eyni zamanda, Azərbaycanın qalan yerlərini də yaddan çıxarmıram", - dövlət başçısı bildirib.

Bir sözlə, Azərbaycan Prezidentinin bölgələrə hər bir səfəri regionların inkişafına, vətəndaşların rifahına, hətta ən ucqar kəndlərdə yaşayan insanların layiqli həyat şəraitinin təmin edilməsinə yönəlib. Həmçinin, dövlət başçısının səfər zamanı yerli sakinlərlə görüşü, onlarla səmimi söhbətləri, qayğıları ilə şəxsən maraqlanmaları da dövlətin hər zaman öz vətəndaşının yanında olduğunu göstərir. Və hər səfəri sosial rifahın daha da inkişafına doğru atılan uğurlu addım olmaqla, ölkəmizin daha da inkişaf etməsinə, sosial rifahın yüksək səviyyəyə çatdırılmasına və iqtisadiyyatımızın güclənməsinə geniş imkanlar yaradır.

*RƏFİQƏ KAMALQIZI*

---

# Sahibə Qafarova Mustafa Şentopla görüşüb



Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Mustafa Şentop Milli Məclisin sədri Sahibə Qafarova ilə görüşüb. TBMM sədri bu barədə "Twitter" hesabında paylaşım edib.

Qeyd edilib ki, TBMM sədri Mustafa Şentop ev sahibliyi etdiyi İslam Əməkdaşlığı Təşkilatı Parlament İttifaqının 16-cı sessiyasında Milli Məclisin sədri Sahibə Qafarova və onun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

# 10 DEKABR ZƏFƏR PARADI -

## Qarabağın statusunun olmayacağının Azadlıq meydanında nümayişidir

2020-ci il noyabrın 10-da Zəfərin möhürü olan üçtərəfli bəyanatın imzalanmasından bir il keçməsinə baxmayaraq Ermənistan hələ də anlamır ki, yalanın zaman baxımından bir ömrü olsa da, həqiqət əbədidir. Bəli, həqiqət əbədidir. Bu gün Azərbaycan dövlətinin diplomatik "Dəmir yumruq" siyasəti nəticəsində 20 faizdən çox torpaqlarımızı 30 il həsrətdə saxlayan, "böyük Ermənistan" xülyasına, "24 aprel" stereotipinin ağ yalanlarına 44 gün ərzində son qoyuldu, əzə bildi. Bu Azarbaycanın haqq yolu idi və həqiqət hər zaman yalan üzərində qələbə çalıb. Bu əzm xalq-dövlət birliyinin, inamının qələbəsidir, bu Ali Baş Komandanın, Azərbaycan Prezidentinin "Dəmir yumruq" siyasətinin qələbəsi, xalq-iqtidar-ordu birliyinin həqiqətidir. Azərbaycan yeni reallıq yaratdı, Ermənistanın kapitulyasiyası oldu. Və belə olan halda sülh müqaviləsinin şərtlərini qəbul etməli və razılaşmalıdır. Çünki bu gün Qarabağa hansısa statusun verilməsi ümumiyyətlə, mümkün deyil. Çünki bu gün şərtləri qaliblər diktə edir. Belə olan halda statusla bağlı məsələ yoxdur!

**PREZİDENT İLHAM ƏLİYEV: "NƏ QƏDƏR Kİ, MƏN PREZİDENTƏM, STATUS OLMAYACAQ"**




Qalib Lider xalqa müraciətində dediyi kimi: "Mən bir məsələni də bildirmək, əziz xalqıma çatdırmaq istəyirəm. Yəqin siz fikir vermisiniz ki, bu bəyanatda Dağlıq Qarabağın statusu haqqında bir kəlmə də yoxdur. Bəs hanı Ermənistan tərəfinin tələbləri ki, Dağlıq Qarabağa müstəqillik verilməlidir? Bəs mən onlara muxtariyyət təklif edəndə buna razı olmadılar. Dedilər ki, yox, bu, "müstəqil dövlətdir". Uzun illər bunlar "müstəqil dövlət" kimi yaşayır və onlar Azərbaycandan müstəqillik almalıdırlar. Bir kəmlə də yoxdur, Paşinyan. Nə oldu bəs? Bu nə oldu Paşinyan, deyəsən, bir çox illər ərzində dillərdə qalacaq. Nə oldu Paşinyan, yol çəkirdin Cəbrayıla. Rəqs edirdin, nə oldu bəs status? Cəhənnəmə getdi status, gora getdi status, gorbagor oldu status, yoxdur status və olmayacaq. Nə qədər ki, mən Prezidentəm, status olmayacaq!".






**ŞƏRTLƏRİ QALİB LİDER DİKTƏ EDİR: "NƏ QƏDƏR Kİ, MƏN PREZİDENTƏM, STATUS OLMAYACAQ!"**

Bu gün qalib lider Prezident İlham Əliyev irəli sürdüyü şərtlər qəbul edilir və o cümlədən Zəngəzur dəhlizinin açılması ilə bağlı konkret müddət göstərilməsə, bu vaxtı Azərbaycan müəyyən edəcək. Belə olan halda Ermənistan ağıllarını başlarına yığıb bilməlidirlər ki, Azərbaycan indiyə kimi nəyi diktə edibsə, o icra edilib, öhdəliklərdən qaçmaq mümkün deyil. Şərtlərə əməl etmək lazımdır və həmin şərtlərə əməl etməsə, bu, ona və Ermənistana gələcəkdə çox baha başa gələ bilər. Daha dəqiq desək, "Dəmir Yumruğ"un növbəti zərbəsi ilə qarşılaşacaqlar. Dövlət İlham Əliyevin söylədiyi kimi, 30 ilin əziyyəti, 30 ilin ümidsizliyi, 30 ilin əzabları xalqımızı sındırmadı, iradəmizə heç bir mənfi təsir göstərmədi. Əksinə, daha da bütövləşdik, daha da mətinləşdik, daha da gücləndik, özümüzü topарladıq və sonunda Zəfər bizim oldu.Bəli, üçtərəfli bəyanatın imzalanması ilə münaqişənin hərbi mərhələsi başa çatdı. Ağdam, Laçın, Kəlbəcər rayonları qan tökülmədən qaytarıldı, status-kvo, "Dağlıq Qarabağ" adlı ərazi vahidi ləğv edildi. Və beləliklə, bu qələbənin nümayişi 10 dekabr 2020-ci ildə keçirilən Zəfər Paradında bir daha dünyaya göstərildi. Bu Paradla Qarabağ Azərbaycandır! nidasının təntənəsi, "Dağlıq Qarabağın" statusunun olmayacağının Azadlıq meydanında nümayişi, işğalçı Ermənistanın yeni erməni dövlətinin yaradılması planlarının üstündən birdəfəlik xətt çəkməsinin nümayişi idi.

Çünki bu gün regionda Azərbaycanın maraqlarına cavab verən yeni siyasi reallıq yaranıb, ərazi bütövlüyümüz təmin olunub və heç bir statusdan söhbət gedə bilməz! Bu isə Azərbaycanın tam və qeyd-şərtsiz qələbəsinin əyani sübutudur.Bütün bu söylənilənlərdən belə bir qənaətə gəlmək mümkündür ki, "Nə qədər mən Prezidentəm, heç bir statusdan söhbət gedə bilməz!" deyən dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyev nəyi necə və nə zaman etməyi yaxşı bildiyini bir daha nümayiş etdirdi. Və "Ermənistanın hünəri varsa, tanısın "Dağlıq Qarabağ respublikası"nı. Ermənistan hakimiyyəti, tanıyın onu. Bu gün tanıyın, tanımırsınızsa, deməli qorxursunuz. Gedin, ağlınızı başınıza yığın!" - bu Azərbaycan Prezidentinin sözü, tələbidir!. Və 2016-cı ildən bu yana Azərbaycanı işğalla barışdırmağın qeyri-mümkünlüyünü idrak etməyiblərsə, onlar fil qulağında yatıb.

Qalib Liderimiz, Prezident İlham Əliyevin növbəti mesajı: "Dağlıq Qarabağ respublikası" yoxdur. Qoy, erməni xalqı özünü aldatmasın. Biz bütün qalan şərtləri də rədd edirik, o kağızı da zibil qutusuna atırıq. Ancaq erməni xalqı yaxşı düşünsün, yaxşı fikirləşsin. Əgər onlar bundan sonra da cinayətkarların girovu kimi yaşamaq istəyirlərsə, onda indiki hakimiyyətin ağılsız və təhlükəli addımlarına göz yumsunlar". Yenə də Azərbaycan Prezidentinin nitqindən: "Onlar başa düşməlidirlər ki, erməni silahlı qüvvələri bizim torpaqlarımızdan çıxmasa, sülh olmayacaq və onlar özləri peşman olacaqlar. Nə qədər ki, gec deyil, erməni silahlı qüvvələri bizim torpaqlarımızdan çıxmalıdır. Bunu beynəlxalq hüquq, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi tələb edir. Erməni silahlı qüvvələri Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılmalıdır!".

Bir sözlə, 10 dekabr Zəfər Paradı -Qarabağın statusunun olmayacağının, dünya tarixinə ədaləti bərpa etməyə qadir ölkə kimi daxil olan Azərbaycanın böyük Zəfərinin, Qələbə bayraqlarının Azadlıq meydanında nümayişidir. Müstəqilliyimizin ilk Zəfər Paradın mübarək, Azərbaycan xalqı!

***RƏFİQƏ KAMALQIZI***

# “Media subyektlərinə 5 il müddətində vergi güzəştləri tətbiq oluna bilər”

## Medianın İnkişafı Agentliyində görüş keçirilib






**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyində bir sıra media subyektlərinin rəhbər və nümayəndələrinin iştirakı ilə görüş keçirilib. SİA məlumat verir ki, media sahəsində islahatlar çərçivəsində görülən işlərin müzakirəsinə həsr olunmuş görüşdə ”Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 yanvar tarixli fərmanının müvafiq sahədə islahatların yol xəritəsi olduğu vurğulanıb. Fərmandan irəli gələrək normativ hüquqi bazanın yenilənməsi və təkmilləşdirilməsi, media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi, jurnalistlərin peşəkarlığının, məsuliyyətinin və cəmiyyətin media savadlılığının artırılması istiqamətində həyata keçirilən çoxşaxəli və kompleks tədbirlərin mahiyyəti və əhatəsi barədə geniş məlumat verilib.**

”Media haqqında” qanun layihəsi, jurnalistlərin sosial müdafiəsinə yönəlmiş tədbirlərin həyata keçirilməsi, media subyektləri və jurnalistlərin peşəkarlıq meyarına uyğun fəaliyyət göstərə bilmələri üçün hüquqi təminatın yaradılması haqqında fikirlərini bölüşən görüş iştirakçıları, eyni zamanda media və biznes strukturları arasında platformanın yaradılması və media dəstək layihələrinin həyata keçirilməsi istiqamətində görülən işlərə diqqət çəkib.

Media Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov bildirib ki, Agentlik dövlət orqanlarının mətbuat katibləri, media qurumlarının rəhbərləri və jurnalistlər üçün seminar təlimlər təşkil edib, media savadlılığının artırılması, yeni nəsil jurnalist kadrlarının hazırlanması məqsədilə ”New Media” proqramı və fərdi jurnalist müsabiqələri keçirib, o cümlədən sahəvi jurnalistikanın inkişafı istiqamətində müvafiq işlər görüb.

Müzakirə zamanı medianın keyfiyyət, peşəkarlıq və standartlar baxımından təhlili, hüquqi bazanın təkmilləşdirilməsi, kommunikasiyanın təşkili, beynəlxalq əməkdaşlıq, strateji planlaşdırma və perspektiv planlar barədə fikir mübadiləsi aparılıb. Görüş qarşılıqlı maraq doğuran məsələlərin müzakirəsi ilə başa çatıb.

Media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi istiqamətində iş aparılır. Ə.İsmayılov bildirib ki, bu istiqamətdə İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi ilə görüşlər keçirilib, müzakirələr aparılıb. O bildirib ki, bununla bağlı Vergilər Məcəlləsinə dəyişiklər olması ilə bağlı sənəd hazırlanıb.

Ə.İsmayılovun sözlərinə görə, sənəd özündə 5 il müddətində media subyektlərinə vergi güzəştlərinin tətbiq olunmasını ehtiva edir: ”Media subyektlərinin həm məfəət, həm ƏDV-dən azad edilməsi təklif edilir. Bir sıra nazirliklərin fikirləri var və bu istiqamətdə iş aparılır. Sənəd tam hazır olduqdan sonra müzakirələrə təqdim ediləcək”, deyə Ə.İsmayılov bildirib.

***Turqay Musayev***

---

## “Media sahəsindəki islahatlar kompleks xarakter daşıyır”



**“Əvvəla qeyd edim ki, media sahəsindəki islahatlar kompleks xarakter daşıyır. Və yalnız hüquqi bazanın formalaşdırılmasını əhatə etmir”. Bunu SİA-ya açıqlamasında əməkdar jurnalist Elçin Mirzəbəyli deyib. O, qeyd edib ki, Media Agentliyi tərəfindən daha geniş işlər aparılır. Bugünkü təqdimatda da görülən işlərin və atılacaq adddımların bizim təsəvvürümüzdən daha geniş olduğu ortaya çıxdı.**

Elçin Mirzəbəyli bu barədə fikirlərini belə izah edib: ”Məlum oldu ki, bundan sonrakı proseslər ən müxtəlif istiqamətlər üzrə həm sahibkarlıq subyekti kimi medianın inkişafından başlamış, eyni zamanda peşəkarlığın artırılması, gənclərin bu prosesə cəlb edilməsi, bütövlükdə medianın dinamikasının artırılması istiqamətində çoxsaylı tədbirlərin keçirilməsi gözlənilir. Bu aspektdən də düşünürəm ki, həyata keçirilən islahatların nəticəsi özünü bürüzə verəcək. Artıq bir sıra istiqamətlərdə pozitiv məqamlar özünü bürüzə verməkdədir. Çünki Azərbaycan mediasının faktiki olaraq yaradıcılıq baxımından keyfiyyəti artır. Bunu hər kəs müşahidəsi əsasında özü üçün aydınlaşdıra bilər. Amma daha geniş istiqamətdə fəaliyyətin ortaya çıxması və nəticələrin əldə olunması üçün daha geniş bir zamana ehtiyac var ki, mən bir media nümayəndəsi kimi gələn il kəsiyində bu mənada kifayət qədər addımların atılacağını və bu addımların ümumilikdə medianın inkişafına təkan verəcəyinə inanıram”.

***Turqay Musayev***

---

SİYASİ RAKURS

# Yerli seçkilərdəki məğlubiyyət Paşinyana nə vəd edir?

**Ermənistanın baş naziri gücünü ölkə əhəmiyyətli seçkilərə saxlayır**



Ermənistanda yerli özünüidarəetmə orqanlarına keçirilmiş seçkilər barədə gələnən ilkin nəticələr paralel olaraq özündə bir sıra və növbəti proqnozları da ehtiva etməkdədir. Belə ki, bu seçkilər parlament seçkilərindən sonra sayca ikincisidir. Ümumi tendensiya isə belədir: birinci seçkilər kimi ikinci seçkilərdə də hakim partiyaya qalib gələnlər yerli elitalardırlar ki, onlar parlament müxalifəti ilə - yəni sabiq iqtidarçılarla həmfikirlik təşkil edirlər. Ancaq bu, o demək deyil ki, parlament seçkilərində Koçaryanla Sarqsyanın qalib olmamaları üçün Nikol Paşinyana səs verən erməni seçicilərinin keçmiş iqtidar nümayəndələrinə görə ”gözləri atır”. Yəni Ermənistan əhalisi mövcud hakimiyyətə etibar və etimad göstərməsə də, sabiqlərə daha çox nifrət bəsləyir.

### Paşinyana alternativ ola biləcək üçüncü qüvvələr

Lakin hər şeyə rəğmən, Paşinyan da anlayır ki, ona qarşı narazılıqlar artır və nə qədər ki, siyasi səhnədə Koçaryan-Sarqsyan faktorları mövcuddursa, o öz hakimiyyətini davam etdirməyə, prosesləri isə idarə etməyə imkanlar tapacaq. Və əgər bu gün Paşinyana real alternativ yoxdursa, nə zamandasa həmin alternativin də üzə çıxmayacağını kimsə deyə bilməz. Daha dəqiq desək, Paşinyan üçün təhlükəli alternativ yalnız beləsləri ola bilər - həmin fiqur həm mövcud iqtidara, həm də sabiqlərə qarşı çıxmalıdır. Özü də erməni siyasi kuluarlarında belə siyasətçilər kifayət qədərdir: prezident Armen Sarkisyan, ombudsman Arman Tatoyan, Edmon Marukyan, politoloq Vardanyan. Bu adamların hər biri Ermənistanın siyasi səhnəsində üçüncü qüvvə rolunu əldə etmək mərhələsindədirlər. Ancaq daha bir inkaredilməz faktor budur ki, üçüncü qüvvə roluna qərbyönlü güclər də namizəd olacaqlar.

Lakin yerli özünüidarəetmə seçkilərində məğlubiyyətə uğramaq amili Paşinyanın özünün legitimliyini şübhə altında qoymur.

### Qalib gələnlər ya kiçik partiyalar, ya da yerli elitalar, kiçik oliqarxlardır

Fakt budur ki, o, parlament seçkilərindən qalib çıxdı və legitim baş nazir statusunu daşıyır. Amma daha bir məsələ ondan ibarətdir ki, əgər parlamentdəki hakim fraksiyada çatlar yaranarsa, növbəti seçkilərdə də məğlubiyyətlər baş verərsə, bu zaman Paşinyan iqtidarı ciddi dilemmalar qarşısında qalmalı olacaq - ya gedəcək, ya da getməməsi üçün güc yolunu seçib xalqa qarşı çıxacaq.

Ermənistandakı yerli özünüidarəetmə orqanlarına seçkilərdə alınan məğlubiyyət hakim partiyanın sistemli məğlubiyyəti hesab oluna bilinməz. Qalib gələnlər ya kiçik partiyalar, ya da yerli elitalar, kiçik oliqarxlardır. Bu isə Nikol Paşinyanın hakimiyyəti vasitəsi ilə onları çərçivədə saxlamasına kifayət qədər imkan yaradır. Söz yox ki, Azərbaycan üçün bir sıra sənədlərə imza atmış Paşinyanın hakimiyyətə qalması sərf edir. Başqa yandan, erməni baş naziri də dərk edir ki, o üzərinə götürdüyü məsuliyyətini icra edəcək və onun başqa yolu da yoxdur. Ona görə də iqtidarını əldə saxlaması üçün gücünü yerli özünüidarəetmə orqanlarındakı seçkilərə deyil, ölkə əhəmiyyətli seçkilərə saxlayır.

***Rövşən RƏSULOV***

# "Azərbaycanın inkişafı, nailiyyətlərimiz Ulu Öndərin adı ilə bağlıdır"











**Böyük tarixi şəxsiyyətlərin doğum tarixi olur, onların ölüm tarixi yoxdur, onlar ölmürlər və Ulu Öndər Heydər Əliyev də məhz belə dahi, unudulmaz şəxsiyyətlərdən biridir və mən deyərdim ki, birincisidir. Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib.**

Komitə sədri qeyd edib ki, Azərbaycanın inkişafı, Azərbaycan xalqının tərəqqisi, Azərbaycanın dünyada tanınması və bu günkü nailiyyətlərimiz məhz Ulu Öndərin adı, onun amalları, əməlləri ilə bağlıdır.

"Biz bir çox hallarda deyirik ki, Azərbaycan 1993-cü ildə ağır bəlalardan qurtuldu, Ulu Öndər Heydər Əliyev hakimiyyətə qayıtmaqla xalqı təcavüzdən, parçalanmaqdan, ölkəni bölünməkdən xilas etdi, amma mənim fikrimcə, Ümummilli Lider Heydər Əliyev iki dəfə Azərbaycanı böyük fəlakətlərdən, geriliklərdən qurtarıb. Ulu Öndər Heydər Əliyevin 1969-ci ildə ilk dəfə vəzifəyə gəlməsi zamanında, Azərbaycan Sovetlər dövründə ölkənin ən geridə qalmış, iqtisadi cəhətdən ən zəif respublikalarından biri idi. İnsanların həyat səviyyəsi də normal deyildi, çox aşağı səviyyədə idi, demək olar ki, kənd təsərrüfatı özünün böhranlı vəziyyətini yaşayırdı və artıq insanların gələcəyə ümidləri sarsılmışdı və Azərbaycan vətəndaşları üzlərini qonşu respublikalara tutur, orada iş yerləri axtarır və öz həyatlarını yaxşılaşdırmaq niyyətinə düşürdülər. Belə bir vaxtda Heydər Əliyev hakimiyyətə gəldi, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildi və az bir müddətdə Azərbaycan Sovetlər İttifaqının ən qabaqcıl respublikalarından birinə çevrildi. Xüsusilə, aqrar sahə, kənd təsərrüfatı sürətlə inkişaf etdirildi, regionlarda insanların həyat şəraiti yaxşılaşdırıldı. Nəinki kənd təsərrüfatı inkişaf etdirildi, Azərbaycan itifaqda bir sənaye respublikası kimi tanınmağa başladı, çoxsaylı zavodlar, fabriklər, sənaye müəssisələri açıldı. Əlbəttə ki, bu özü bir qurtuluş idi, insanların aclıqdan, yoxsulluqdan, ölkənin gerilikdən qurtuluşu idi.

Sözsüz ki, Ulu Öndər Heydər Əliyev ikinci dəfə hakimiyyətə gələndə o ölkəni daha ağır bəlalardan qurtardı. Hərcmərclik, özbaşınalıq, silahlı qruplaşmalar ölkəni talan edirdi. Hakimiyyətsizlik insanların mənəviyyatını məhv etməkdə idi və belə bir bir çətin vaxtda Azərbaycan xalqı Ümummilli Lider Heydər Əliyevə üz tutdu, onu hakimiyyətə dəvət etdi və onun ikinci dəfə hakimiyyətə gəlişi ilə ölkə parçalanmadan, ərazilərinin daha böyük təcavüzə məruz qalınmasından xilas oldu. Əlbəttə ki, bu bir müdriklik, uzaqgörənlik, böyük siyasət tələb edirdi və bu xüsusiyyətlər Heydər Əliyevə xas idi. O, nəinki Azərbaycanda, ümumiyyətlə dünyada böyük siyasətçi, müdrik rəhbər kimi tanınırdı və bu xüsusiyyətlər əməli işdə tez bir zamanda özünü göstərdi, ölkədə hərc-mərcliyin, silahlı birləşmələrin qarşısı alındı. Ulu Öndərin neft kontraktına imza atması ilə Azərbaycan iqtisadiyyatı özünün böhranlı vəziyyətindən çıxmasına nail oldu, tez bir zamanda artıq ölkə dirçəldi, ordu quruculuğunda, iqtisadiyyatda, idarəetmədə əsaslı dəyişikliklər baş verdi. Əlbəttə ki, bu siyasət bizim hörmətli Prezidentimiz tərəfindən davam etdirilməli idi və cənab İlham Əliyev də Ulu Öndərin siyasi kursunu davam etdirməklə bugünkü nailiyyətlərimizin, tanınmağımızın bir səbəbkarı, təşkilatçısı oldu.

Bu gün Azərbaycan iqtisadiyyatı, xüsusilə aqrar sahə, digər sahələr inkişaf etməkdədir və biz bu nailiyyətlərə nəzər salanda öncə bu uğurların əsasını qoyan insanı, Ulu Öndərimizi, Heydər Əliyevi xatırlayırıq. Çünki o zamankı böyük layihələr, düşünülmüş proqramlar irəli sürülməsəydi, tərtib olunmasaydı, əlbəttə ki, bu günkü davamlı, möhkəm iqtisadiyyatdan danışmaq mümkün deyildi. Bütün nailiyyətlərimizin əsasında Ümummilli Lider Heydər Əliyevin müdrikliyi, onun ucalığı, onun uzaqgörənliyi durur. Tarix davam edir, biz uğurlarımızla fəxr edirik və hər an, hər dəqiqə Ulu Öndərin gördükləri işlər bizim yaddaşımızda, xatirəmizdə, əməllərimizdə, amallarımızda davam edir. Çünki Ulu Öndər özünün nəcib arzuları əməlləri ilə elə bir möhkəm qala, elə bir möhkəm təməl qoyub ki, o heç zaman dağılan, uçulan, əyilən deyil. Azərbaycan xalqının, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan, cənab İlham Əliyevin, bizim müzəffər ordumuzun düşmən üzərində tarixi qələbəsi, dünyada qazandığımız nüfuz və hörmət bu gün bunu deməyə əsas verir. Çünkli bu siyasət Ulu Öndər Heydər Əliyevdən gəlmədir, onun müdrik düşüncələrinin, arzularının davam etdirilməsidir və bunu bizim hörmətli Prezidentimiz çox böyük uğurla, çox böyük bacarıqla həyata keçirir. Azərbaycan xalqı üçün Heydər Əliyev cismən yoxdur, ancaq o Azərbaycan xalqının qəlbindədir və hər bir insanın ürəyində, əməlində, arzusunda daimi yaşayır. Çünki Azərbaycan xalqının gələcəyi, Azərbaycan xalqının inkişafı, Azərbaycan xalqının öz sözünü deməsi, qüdrətini göstərməsi bilavasitə Ulu Öndərin o müdrik əməllərindən qaynaqlanır və elə bilirəm ki, bundan sonra da Heydər Əliyevin qoyduğu yol, tutduğu siyasi xətt hər bir Azərbaycan vətəndaşı üçün örnək olacaq. Allah Ulu Öndərimizə rəhmət eləsin. Azərbaycan xalqı nə qədər yaşayır, nə qədər Azərbaycan var, Heydər Əliyev də bizimlədir, bizimlə bir yerdədir, bizimlə bir çalışır, bizimlə bir mübarizə aparır və o mübarizənin ön cərgəsində birinci sırasındadır", deyə Tahir Rzayev bildirib.

***İnam Hacıyev***

# Zəfər

## paradı ilə hərbi qüdrətimizi də nümayiş etdirdik

**Vaxti ilə torpaqlarımız işğal altında olarkən cənab İlham Əliyev tərəfindən səsləndirilmiş bu fikirləri o vaxt çoxları gerçəklik kimi qəbul etmirdi. Lakin cənab İlham Əliyev bütün mötəbər kürsülərdən Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq deyə bildirirdi. Bu gəlişi gözəl sözlər deyildi. Ölkənin rəhbəri, Silahlı Qüvələrirn Ali Baş Komandanı tərəfindən səsləndirilən bu fikirlərin arxasında böyük həqiqətlər dayanırdı. Lakin məğlubiyyətlə barışmazlıq yetərli deyildi. Bu gerçəyi funksional siyasətə çevirmək üçün böyük səbr və mətanətlə bərabər xalqı bu ideya ətrafında səfərbər etmək lazım idi. Bu isə üç amili özündə birləşdirirdi.**

1) Güclü iqtisadiyyat,
2) Güclü ordu,
3) Vətənpərvər gənclik.

Təsadüfi deyil ki, Ümummili lider Heydər Əliyev ”İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdi” şüarını söyləmiş və bu starteji hədəfə çatmaq üçün yaratdığı münbit şəraiti uğurla öz siyasi varisinə ötürmüşdür. Şübhəsiz ki, ölkənin iqtisadi qüdrəti qələbə üçün zəmin yaratdı. Azərbaycan iqtisadi baxımdan inkişaf edərək torpaqlarının azad edilməsinə nail oldu. Çünki iqtisadi inkişaf bizim Qələbəmizin əsasını təşkil etdi. Əgər iqtisadi inkişaf olmasaydı, əgər bizim iqtisadi müstəqilliyimiz olmasaydı, ordumuzu müasir silahlara təhciz edə bilməzdik. Həmçinin Azərbaycan düzgün qurulmuş neft startegiyası sayəsində Ermənistan regionda həyata keçirilən taransmilli layihələrdən kənarda qaldı və təcrid edildi.



*Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri*

## *Ali Baş Komandan İlham Əliyev:*

### *"Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək"*




### Ordu quruculuğunun təməl daşları Heydər Əliyev tərəfindən düzgün müəyyən edilməsi, uğurlu siyasi varis İlham Əliyev tərəfindən davam etdirilməsi

Böyük Qələbənin rəhninə çevrildi. Tarix göstərir ki, hər hansı milləti kölə vəziyyətinə salmaq üçün ona keçmişini, milli ənənələrini unutdurmaq və yaxud da kökündən uzaqlaşdırıb yaxın çağlara gətirmək yetərlidir. Xalqın qərinələr boyu formalaşmış yüksək əxlaqi-mənəvi meyarlarını pak və sağlam niyyətlərlə qoruyaraq bütövlükdə cəmiyyətin pozitiv ruhda inkişafına təsir göstərmək, onun genetik yaddaşını, tarixi kimliyini, milli irs və özünəməxsusluğunu gələcək nəsillərə ötürmək kimi çətin missiya fenomenal şəxsiyyətlərin üzərinə düşür. Dünyada sülhün və təhlükəsizliyin möhkəmlənməsinə töhfələrini verən, multikultural dəyərləri ilə seçilən, birgə yanaşı yaşamaq modelini nümayiş etdirən, müasirləşən və modernləşən Azərbaycan milli-mənəvi dəyərlərinə də böyük diqqət və həssaslıqla yanaşan cənab Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva Azərbaycan xalqının zəngin milli-mənəvi irsinin qorunub saxlanılması və gələcək nəsillərə çatdırılması naminə əzmlə çalışaraq bu missiyanı ləyaqətlə yerinə yetirmişlər. Vətənpərvər gəncliyin yetişməsi və bu kontekdə hərbi potensialının gücləndirilməsi daimi dövlətimizin diqqət mərkəzində olmuşdur. Eyni zamanda ordumuzun tarixi ənənələrə sahib olmasını heç vaxt unutdurmayan Ümummilli Lider Heydər Əliyevin xidməti müstəsna əhəmiyyətə malikdir. Özünü Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan etmiş Azərbaycan Respublikası, müstəqliyinin ilk illərində oktyabrın 9-nu ”Ordu günü” kimi qeyd etsə də, Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev tarixi ənənəni yaşatmaq üçün 22 may 1998-ci il tarixində Fərman imzalamış və Azərbaycan Xalq Cümhuriyyətinin Ordusunun yaradıldığı, 26 iyun tarixini Azərbaycan Respublikası Silahlı Qüvvələri günü elan etmişdir.

Bu ənənə Prezident İlham Əliyev tərəfindən davam etdirilmiş Azərbaycan Ordusunun tarixinin dərindən öyrənilməsi və təbliğ edilməsi xüsusi diqqət mərkəzində olmuşdur. Bu mənəvi tərbiyə 44 günülük Vətən müharibəsi dönəmində özünü bariz şəkildə göstərdi. Cənab Ali Baş Komandan İlham Əliyevin böyük qürurla söylədiyi ”mənim dövrümdə yetişən vətənpərvər Azərbaycan gəncliyi Qarabağı azad etdi” fikirlərinin əsas leytmotivini tarixi ənənələrə söykənən vətənpərvərlik tərbiyəsinin nəticəsi idi. Azərbaycan hərbi tarixinin öyrənilməsi məsələsini daimi diqqət mərkəzində saxlayan cənab İlham Əliyev 20 noyabr 2014-cü il tarixdə görkəmli hərbi xadim Əlağa Şıxlınskinin 150 illik yubileyinin keçirilməsi ilə bağlı Fərmanında bildirir: ”XX əsrin əvvəllərindən etibarən irimiqyaslı hərbi əməliyyatların iştirakçısı kimi general Əlağa Şıxlinski döyüş meydanlarındakı şücaətləri və artilleriya nəzəriyyəsinə gətirdiyi yenilikləri ilə hərb tarixinə parlaq səhifələr yazmışdır. O, Azərbaycan Xalq Cümhuriyyətinin mühüm dövlət təsisatları yaradılarkən milli qoşun hissələrinin təşkilində, müstəqil ordu quruculuğunda müstəsna fəaliyyət göstərmiş, sonrakı dövrlərdə də hərbi andına sadiq qalaraq ölkənin silahlı qüvvələrinin formalaşdırılmasına töhfələr vermişdir”.

Prezident İlham Əliyevin 29 sentaybr 2015-ci il tarixdə AXC-nin hərbi naziri olmuş Səməd bəy Mehmandarovun 160 illik yubileyinin keçirilməsi ilə bağlı Sərəncamında qeyd edir: ”General Səməd bəy Mehmandarov döyüş meydanlarındakı yüksək peşəkarlığı və zabit şərəfinə hədsiz sədaqəti ilə Azərbaycan xalqının hərb salnaməsinə unudulmaz səhifələr yazmışdır. Azərbaycan Xalq Cümhuriyyəti yaradılarkən ordu quruculuğu prosesinin bütünlüklə milli zəmin üzərində həyata keçirilməsi, hərbi potensialın məharətlə istiqamətləndirilməsi və konkret tarixi şəraitdə ölkənin ərazi bütövlüyünün, hərbi təhlükəsizliyinin layiqincə təşkil edilməsi məhz onun fəaliyyətinin nəticələridir”.

Azərbaycan hərbi tarixinə yüksək ehtiram gənc nəslin hərbi vətənpərvərlik ruhunda tərbiyə edilməsi eyni zamanda Azərbaycan Prezidenti cənab İlham Əliyevin soy-kökümüzə tarixi ənənələrimizə sonsuz ehtiramın nümüunəsidir.

Bütün bunlar tarixi Zəfərin təsdüfi olmadığını və bu QƏLƏBƏYƏ həsr edilmiş Zəfər paradının keçirilməsi də 44 günlük Vətən müharibəsinin qalib sərkərdəsi MÜZƏFFƏR ALİ BAŞ KOMANDAN ünvanını qazanmış Prezident İlham Əliyevin Azərbaycan tarixi qarşısında xidmətlərinin mükafatı idi.

Ulu Öndər bu günləri görürmüş kimi cənab İlham Əliyev haqqında söylədiyi ”Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm” fikirləri bir qiymətli olaraq həyatda öz əksini tapdı. Ölkə Prezidenti İlham Əliyevin 2003-cü ildə keçirilən andiçmə mərasimində ifadə etdiyi ”Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Azərbaycanda demokratiya daha da inkişaf edəcək, siyasi plüralizm, söz azadlığı təmin olunacaqdır. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün Azərbaycanda çox işlər görmək lazımdır. Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm.” Heydər Əliyevin xalqımızın xöşbəxt gələcəyinə hesablanmış siyasətinin ardıcıl olaraq uğurla davam etdirilməsi şanlı qələbəmizin akkordlarına çevrildi.

Bir il əvvəl keçirilən Zəfər paradında çıxış edən İlham Əliyev demişdir: ”Azərbaycan 44 gün ərzində parlaq qələbə qazanaraq Ermənistanı məğlub etdi, işğala son qoydu. Bu 44 günün hər günü bizim şanlı tariximizdir. Hər gün Azərbaycan Ordusu irəli gedirdi, hər gün yeni şəhərlər, kəndlər, qəsəbələr, yüksəkliklər azad edilirdi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bir amalla vuruşurdu ki, bu işğala son qoyulsun, bu haqsızlığa son qoyulsun, ədalət zəfər çalsın, tarixi ədalət zəfər çalsın və buna nail olduq.

Azərbaycan əraziləri 30 ilə yaxın işğal altında idi. 1990-cı illərin əvvəllərində Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti torpaqlarımızın işğal altına düşməsinə səbəb olmuşdu. Əslində, Ermənistanın təcavüzkar siyasəti hələ 1980-ci illərin sonlarından başlamışdı. O vaxt indiki Ermənistan Respublikasında yaşamış 100 minlərlə azərbaycanlı öz dədə-baba torpaqlarından didərgin salındı. Zəngəzur, Göyçə, İrəvan mahalı bizim tarixi torpaqlarımızdır. Bizim xalqımız bu torpaqlarda əsrlərboyu yaşayıb, ancaq Ermənistan rəhbərliyi o vaxt 100 minlərlə azərbaycanlını öz doğma torpaqlarından didərgin salmışdır. Ondan sonra Dağlıq Qarabağda eyni mənzərə müşahidə olunurdu, Ermənistan tərəfi zor gücü ilə Azərbaycanın dinc əhalisinə qarşı hərbi cinayət törətmişdir, Xocalı soyqırımını törətmişdir. Ondan sonra 1992-ci ilin may ayında Şuşa şəhərinin və Laçın şəhərinin işğala məruz qalması Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi bağlantı yaratmışdı. 1993-cü ilin aprel ayında Kəlbəcər rayonunun işğal altına düşməsi bizim vəziyyətimizi daha da ağırlaşdırdı və faktiki olaraq sonrakı işğalçılıq siyasətinin davam etdirilməsinə səbəb oldu!”.

*Ardı Səh. 7*

Əvvəli Səh. 6

Daha sonra Azərbaycan Silahlı Qüvvələrinin Müzəffər Ali Baş Komandanı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev deyir: "Bundan sonra Azərbaycan yalnız inkişaf edəcək. Bizim azad edilmiş torpaqlara bundan sonra həyat qayıdacaq... Azadlıq meydanında paradlar çox keçirilib. Ancaq bu paradın xüsusi önəmi var. Bu, Zəfər paradıdır. Bu, tarixi hadisədir. Bu tarixi günün şahidi bizik, Azərbaycan xalqıdır. Biz bundan sonra ancaq və ancaq irəli gedəcəyik".

Zəfər paradında tarixi anların şahidi olduq. Şuşa şəhəri azad edildikdən sonra, Azərbaycan hərbçiləri tərəfindən şəhər üzərində qaldırılan Zəfər bayrağı parada gətirilərək paradda nümayiş edirildi. Qeyd edək ki, Vətən müharibəsində Azərbaycanın qələbəsi şərəfinə 2020-ci il dekabrın 10-da Bakının Azadlıq Meydanında keçirilmiş Zəfər paradında 3000 Azərbaycan əsgəri və zabiti ilə yanaşı türk əsgər və zabitləri iştirak etmişdir. Paradı Azərbaycan Silahlı Qüvvələrinin Müzəffər Ali Baş Komandanı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və fəxri qonaq qismində dəvət olunmuş Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan qəbul etmişdir. Paradda yerli və xarici rəsmi qonaqlar, diplomatik korpusun nümayəndələri də iştirak etmişdilər. İki ölkə rəhbərinin paradı birgə qəbul etməsi beynəlxalq ictimaiyyətə verilmiş ciddi mesajdır. Azərbaycan və türk əsgərlərinin çiyin-çiyinə Azadlıq meydanından keçməsi xalqların tarixində əbədi qalacaq qürurverici hadisədir. Həmin günü ölkəmizin bütün şəhərlərinin Azərbaycan və Türkiyə bayraqları ilə bəzədilməsi xalqların mənəvi yaxınlığının təzahürüdür. Zəfər Paradının ən təsirli və yadda qalan anlarından biri də qardaş Türk xaqlının şanlı ordusunun iştirakı idi. Türk əsgərləri həm də şəhidlərimizin rəmzinə çevrildi. 44 Günlük Vətən müharibəsində 2783 Azərbaycan əsgəri şəhid olmuşdur. Məhz Zəfər Paradında 2783 Türk əsgəri iştirak etməklə şəhidlərin ölməzliyini nümayiş etdirdilər.

Hərbi paradların keçirilməsi şübhəsiz ki, həmin ölkənin hərbi qüdrətinin nümayiş etdirilməsi əsas amillərdən biridir. Zəfər paradı qələbəmizin təntənəsini göstərməklə bərabər həmçinin hərbi qüdrətimizi də nümayiş etdirdik. Azərbaycanın Vətən müharibəsində möhtəşəm Qələbəsinə həsr olunmuş Zəfər paradında 150-dək hərbi texnika, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnika, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, eləcə də hərbi gəmi və katerlər nümayiş etdirilmişdir. Həmçinin, müharibə zamanı qənimət kimi ələ keçirilmiş Ermənistan Silahlı Qüvvələrinə məxsus hərbi texnikanın bir qismi nümayiş olunmuşdur.

Vətən Müharibəsində qələbə münasibətilə cənab Prezidentin təşəbbüsü ilə "Zəfər" və "Qarabağ" ordenləri, həmçinin 15 yeni medal təsis olunub - "Vətən Müharibəsi Qəhrəmanı", "Cəsur döyüşçü", "Döyüşdə fərqlənməyə görə", "Suqovuşanın azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Ağdamın azad olunmasına görə", "Laçının azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" və "Vətən müharibəsində arxa cəbhədə xidmətlərə görə". Həmin orden və medalların təsis olunması Qələbənin əbədiləşdirilməsinin və müharibə iştirakçılarına göstərilən diqqətin təzahürüdür. Vətən müharibəsində iştirak etmiş, aparılan döyüş əməliyyatlarının uğurla nəticələnməsinə töhfə vermiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları və mülki işçiləri, habelə müvafiq qurumların ön cəbhədə fədakarlıq göstərmiş əməkdaşları və mülki işçiləri yuxarıda qeyd edilən, həmçinin digər orden və medallarla təltif edilib və bu prosesi hazırda davam edir.

Hərbi qələbəmizin əbədiləşdirilməsi həmçinin Xalqımızın Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı tarixi zəfərin nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Bakıda Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər muzeyinin yaradılması haqqında Sərəncam imzalayıb, həmçinin Hərbi Qənimətlər Parkının salınmasının təşəbbüskarı olub.

Onu da qeyd edək ki Hərbi Qənimətlər Parkının yaradılması Ermənistanda etirazlarla qarşılanmışdı. Azərbaycanın təşəbbüsü ilə ölkəmizə qarşı baş vermiş pozuntularla bağlı Beynəlxalq Məhkəmədə iddialar qaldırılmışdır. Ermənistan tərəfi Hərbi Qənimətlər Parkının fəaliyyətinin dayandırılması ilə bağlı Beynəxalq Məhkəmədə vəsatəti rədd edilmişdir.

Hərbi Qənimətlər Parkı müharibənin miqyasını və Qələbənin möhtəşəmliyini göstərir. Yaradılmasına bu ilin yanvar ayından başlanılan və 5 hektar ərazini əhatə edən Park paytaxtın Xətai rayonundadır. Parkdakı eksponatlar arasında Silahlı Qüvvələrimizin işğaldan azad olunan ərazilərdə ermənilərdən qənimət götürdüyü 2 mindən çox hərbi avtomobilin nömrə nişanlarından hazırlanan və üzərində "Qarabağ Azərbaycandır!" şüarı əks olunan kompozisiya, Ermənistan tərəfindən törədilən müharibə cinayətləri, o cümlədən döyüş bölgəsindən uzaq olan ərazilərimizin raket zərbələrinə məruz qalması, dinc sakinlərin qətlə yetirilməsi və yaralanması barədə faktlar, düşmən tərəfindən Azərbaycan ərazisinə atılmış "İsgəndər-M" raketinin qalıqları var. Burada Vətən müharibəsinin gedişində düşməndən qənimət götürülən hərbi texnikanın bir qismi, ümumilikdə 300-dən çox eksponat, o cümlədən 150-dək ağır texnika, tanklar, döyüş maşınları, artilleriya qurğuları, zenit-raket kompleksləri, atıcı silahlar, hərbi nəqliyyat sərgilənir. Təqdim edilən eksponatlar, 10 səddən ibarət müdafiə sistemi, sığınacaqlar, hərbi kazarmalar, Vətən müharibəsinin gedişatı barədə məlumatlar Azərbaycana Zəfər qazandıran döyüşləri bir daha göz önündə canlandırmağa geniş imkan yaradır.

Heç kimə sirr deyil ki, 44 günlük müharibə zamanı Azərbaycan Ordusunun əks həmlə əməliyyatının dayandırılması ilə bağlı ciddi təzyiqlər olmuşdur. Bu hadisə barəsində cənab İlham Əliyevin fikirləri maraq doğurur. İlham Əliyev: "Ermənistan da gördü, dünya da gördü, heç kim bizi saxlaya bilmədi. Müharibə dövründə bizi saxlamaq istəyənlər olub, kifayət qədər güclü dairələr olub, amma bizi dayandıra bilmədilər". Məhz cənab İlham Əliyevin möhkəm iradəsi, qorxmazlığı bu məslə də müstəsna rol oynamışdır. Cənab Prezident Qələbə haqqında danışarkən bunu məhz Azərbaycan xalqının qələbəsi hesab etmişdir.

İlham Əliyev: "O ki qaldı Qarabağ müharibəsinə, bu, bizim hamımızın Qələbəsidir. Hər bir Azərbaycan vətəndaşı öz əməyi ilə, öz işi ilə o müqəddəs günü yaxınlaşdırırdı. Biz bütün işğal dövründə Qarabağı ürəyimizdə saxlamışdıq və Qarabağı görməyən gənc nəsil yetişdi. Onlar Qarabağı canı-qanı bahasına azad etdilər. Tarixi ədaləti bərpa etdik, xalqımızın ləyaqətini bərpa etdik. İndi isə artıq yeni dövr başlayır."

Azərbaycanın Qarabağda əldə etdiyi tarixi qələbənin əhəmiyyətli nəticələrindən biri də Naxçıvanla birbaşa əlaqəni bərpa etmək üçün 1921-ci ildə sovet Rusiyasının türk dövlətlərini parçalamaq naminə Ermənistana hədiyyə etdiyi üçün Zəngəzur dəhlizinin açılması olacaq. Bu strateji yol Naxçıvanla birbaşa əlaqənin bərpasına, muxtar respublikanın nəqliyyat blokadasından çıxmasına imkan yaratmaqla yanaşı, Zəngəzur dəhlizi həm türk dünyası, həm də region ölkələri üçün gələcəyə açılan bir qapıdır. Bütövlükdə Qafqazın sülh və inkişaf bölgəsinə çevrilməsində regional və beynəlxalq əhəmiyyət daşıyacaq bu dəhlizdən keçən nəqliyyat, kommunikasiya, infrastruktur layihələri bütün türk dünyasını birləşdirməklə bərabər, eyni zamanda, digər ölkələr üçün də əlavə imkanlar yaradacaq. Xüsusi qeyd etmək lazımdır ki, Avropa ilə Asiyanı bağlayacaq əsas xəttin, Zəngəzur dəhlizinin açılması ilə bütün türk dünyasında yeni bir mərhələnin başlanğıcını qoyacağı şübhəsizdir.

Prezident İlham Əliyev aprelin 20-də Azərbaycan Televiziyasına müsahibəsində Zəngəzur dəhlizi ilə bağlı öz münasibətini belə bildirdi: "Biz öz maraqlarımızı təmin etmək üçün lazımi addımları atmalıyıq. Zəngəzur dəhlizinin yaradılması bizim milli, tarixi və gələcək maraqlarımıza tam cavab verir. Biz Zəngəzur dəhlizini icra edəcəyik, Ermənistan bunu istəsə də, istəməsə də. İstəsə, daha asan həll edəcəyik, istəməsə də zorla həll edəcəyik. Necə ki, mən müharibədən əvvəl və müharibə dövründə demişdim ki, bizim torpağımızdan öz xoşunuzla rədd olun, yoxsa sizi zorla çıxaracağıq. Belə də oldu. Zəngəzur dəhlizinin taleyi də eyni olacaq".

Bəli Zəfər paradının ildönümünü qeyd etməklə bərabər cənab İlham Əliyevin dediyi kimi yeni dövrə yeni qələbələrə hazır olmalıyıq.

# Ordumuzun
## Qarabağda məhv etdiyi erməni polkovnik 90-cı illərin hərbi canilərindən olub

**Ermənistan mediası Azərbaycan Ordusunun Qarabağda məhv etdiyi "məşhur" polkovnik Sergey Şakaryan haqqında məqalə dərc edib. Şakaryanın oğlu ilə söhbətləşən jurnalist bir sıra maraqlı məqamları üzə çıxarıb. Məlum olub ki, qəhrəman hərbçilərimiz nəinki erməni ordusunun "perspektivli"yüksək rütbəli zabitini aradan götürüb, hətta onun ailəsini yığdığı varidatdan da məhrum edib. Sən demə Sergeyin Hadrutda evi maşını və digər mülkləri olub.**




"İki sahil" işğalçı ordunun 18-ci motoatıcı diviziyasının qərargah rəisi olmuş Şakaryanla bağlı bəzi maraqlı məqamları təqdim edir:

- Artıq iki ildir ki, ailəsi Şakaryana baş çəkməyə gedir. Amma hərbi hissəyə deyil, onun basdırıldığı Yerablur panteonuna gedirlər. Polkovnik Sergey Şakaryan 30 il Ermənistan silahlı qüvvələrində xidmət edib, 24 medal alıb. Oğlu deyir ki, ilk günlərdə atasıyla əlaqə saxlaya bilmirmiş. Müharibə zamanı görüşə bilməyib.

"Birbaşa əlaqəmiz də yox idi. Amma sürücüsünün nömrəsini öyrəndim və onun telefonu ilə danışdıq. Birinci gün atamın səsi kəsildi və mən heç nə başa düşmədim. Atam yeniyetmə olan zaman Birinci Qarabağ müharibəsində də iştirak edib. Ali hərbi məktəbi bitirdikdən sonra-18 yaşında zabit olub", - polkovnikin oğlu Slava deyib.

Məqalədə qeyd edilir ki, Şakaryan ölümündən bir gün əvvəl zəng vuraraq oğlundan ehtiyatlı olmasını xahiş edib. Daha sonra ailəsiylə əlaqə saxlayacağına söz versə də, bu baş verməyib. Qəhrəman hərbçilərimizin keçirdiyi əməliyyat nəticəsində hərbi cani məhv edilib.

- O, oktyabrın 25-də 46 yaşında öldürüldü. Slava atasının ölümündən bir saat sonra sürücüsündən xəbər tutsa da, ailəyə ertəsi gün məlumat verib. Ailə hər şeyini itirib Hadrutdakı evi, avtomobili və başqa mülkləri.

Qeyd edək ki, erməni mediası silahlı qüvvələrin 18-ci motoatıcı diviziyasının qərargah rəisi olmuş Şakaryanın general rütbəsi almağa əsas namizədlərdən biri kimi təqdim edib. Bildirilir ki, əgər Sergey müharibədə öldürülməsəydi, guya erməni ordusu üçün xeyli xeyir verəcəkmiş. Azərbaycan hərbçiləri isə işğalçı ordunun "perspektivli" polkovnikinin general olmaq arzusunu gözündə qoyub.

# "Ermənistan dəhlizi açmasa, bizim açmaq üçün gücümüz var"

**"Bildiyimiz kimi cənab Prezidentin Quba rayonuna səfəri baş tutdu. Bu səfərin əhəmiyyəti orda tikilən məktəb və həyata keçirilmiş müəyyən abadlıq işləri idi". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Elman Məmmədov bildirib.**

Onun sözlərinə görə, Quba səfərində cənab Prezident ictimaiyyətin nümayəndələri ilə görüşdü: "Təbii ki, Qubaya gedilən zaman mütləq Qırmızı qəsəbədə görüş nəzərdə tutulmuşdu və əhali ilə fikir mübadiləsi aparıldı. Səfər zamanı Azərbaycan-Ermənistan arasında olan münasibətlərdən danışarkən Zəngəzur dəhlizi mövsuzuna da toxunuldu. Prezident 44 günlük müharibə dövründə də xəbərdarlıq edirdi ki, tarix deyilsin, həmin vaxtda qoşunlarını bizim ərazimizdən çıxaracaqlar və biz müharibəni dayandıracağıq. Belə də oldu. Eynilə indi də o mesaj verildi ki, ermənilərə deyirik ki, dəhlizin açılması ilə bağlı bizə tarix deyin. Onsuz da biz o dəhlizi açacağıq. Bu çox ciddi bir mesaj idi, bundan sonra erməni cəmiyyətində ciddi təşviş düşüb. Əgər, Prezident İlham Əliyev bu fikri səsləndirdisə, demək biz nə olursa olsun o sərhəddi açacağıq. Artıq bu, ermənilərə çox ciddi mesaj idi ki, siz dəhlizi açmasanız, bizim açmaq üçün gücümüz var".



***Səbinə Hüseynli***

# “Dahilərin böyüklüyü ondadır ki, onlar hər şeyin əvvəlini bildikləri kimi, sonunu da görürlər”



Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, Milli Məclisin İntizam komissiyasının sədri, iqtisad üzrə elmlər doktoru, professor Eldar İbrahimovun yap.org.az-a müsahibəsi

***- Eldar müəllim, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin anım günü ərəfəsindəyik. Ümummilli Liderin dövlətimiz, xalqımız qarşısındakı xidmətlərini necə şərh edərdiniz? Ulu öndər Heydər Əliyevin hakimiyyətinin birinci dövrü, həmçinin Naxçıvan illəri bugünümüz üçün hansı təməli yaratmışdır?***

- Azərbaycan Respublikasının vətəndaşları və bütün dünya azərbaycanlıları müstəqil Azərbaycan Respublikasının yaradıcısı və memarı, XX əsr milli tariximizin ən qüdrətli siması olan Heydər Əlirza oğlu Əliyevin dekabrın 12-də anım gününə hazırlaşır. Ümummilli lider Heydər Əliyevin zəngin dövlətçilik irsi və həyat fəlsəfəsi hələ uzun müddət diqqət mərkəzində olacaq və bu irsi öyrənmək, qorumaq, təbliğ və tətbiq etmək bugünkü və gələcək nəsillərin qarşısında duran ən vacib və aktuallığını itirməyən qlobal məsələdir

Məlum olduğu kimi Heydər Əliyev 1969-cu ilin iyul ayında Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin birinci katibi kimi Azərbaycan Respublikasına rəhbərliyə başlamışdır. O, fəaliyyətə başladığı ilk gündən xalqına bağlı olduğunu, respublikanın və onun bölgələrinin sosial-iqtisadi inkişafına nail olmaq üçün əzmkarlıqla çalışdığını və əhalinin rifahının yaxşılaşmasına xüsusi önəm verməsini əyani surətdə göstərdi. Azərbaycan Respublikasına rəhbərlik etdiyi 1969-1982-ci illər ərzində Heydər Əliyevin apardığı hərtərəfli və əhatəli işlər, onun özünə və ətrafındakı rəhbər işçilərə qarşı olan tələbkarlığı, yüksək işgüzarlığı sayəsində Azərbaycanın iqtisadiyyatı möhkəmləndi, neft-maşınqayırma və kimya sənayesi və bir sıra digər sahələrdə İttifaqda öncül sıraya çıxdı, istehsal etdiyi rəqabət qabiliyyətli məhsulları 65 xarici ölkəyə ixrac edərək beynəlxalq aləmdə tanınmağa başladı və müstəqil inkişafın əsası qoyuldu.

Heydər Əliyevin Azərbaycan Respublikasına rəhbərlik etdiyi keçən əsrin 70-80-ci illərində iqtisadiyyatın bütün sahələrində olduğu kimi aqrar-sənaye kompleksinin və onun aparıcı bölməsi olan kənd təsərrüfatının inkişafında möhtəşəm nailiyyətlər əldə olundu. Azərbaycan Respublikası bütün növ kənd təsərrüfatı məhsulları istehsalına görə rekord nəticələr əldə etdi, üzüm istehsalında 2 milyon ton həddi keçərək SSRİ məkanında birinci yeri tutdu. Həmin dövrdə təsərrüfatların maddi-texniki bazası yeni texnika və texnologiya ilə möhkəmləndi, əkinçilik mədəniyyəti əsaslı surətdə yüksəldi, bitkiçilik və heyvandarlığın intensiv inkişafı təmin edildi, heyvandarlıq məhsullarının sənaye üsulu ilə istehsalının təşkili üçün çoxsaylı heyvandarlıq kompleksləri və quşçuluq fabrikləri fəaliyyətə başladı. Heydər Əliyevin uzaqgörənliklə həyata keçirdiyi iqtisadi siyasət, göstərdiyi əzmkarlıq, tələbkarlıq və yüksək idarəetmə qabiliyyəti nəticəsində aqrar-sənaye kompleksinin digər sahəsi olan aqrar maşınqayırma sənayesi, mineral gübrə və kənd təsərrüfatı üçün lazım olan digər maddi-texniki vasitələr istehsalı də təşəkkül tapdı. Bu məqsədlə yeni zavodlar tikildi və mövcud aqrarsənaye obyektləri genişləndi.

Həmin dövrdə kənd təsərrüfatı məhsulları istehsalının artımı ilə yanaşı bu məhsulların emalı ilə məşğul olan müəssisələrin şəbəkəsi də böyüdü. Üzümçülüklə məşğul olan iri təsərrüfatların hamısında üzüm emalı zavodları tikilib istifadəyə verildi, mövcud pambıq emalı zavodları modernləşdi və yeniləri tikildi, çay, tütün, fındıq, meyvə, tərəvəz, ət, süd və digər məhsulların emalı müəssisələrinin şəbəkəsi böyüdü. Kənd təsərrüfatı və emal sənayesinin inkişafı respublikamızda yüngül və yeyinti sənayesinin də inkişafına təkan verdi.

Aqrar sahədə həyata keçirilən bu düşünülmüş siyasət nəticəsində Azərbaycanda nəinki möhtəşəm aqrar-sənaye kompleksi yarandı, həmçinin iqtisadiyyatın digər sahələrinin inkişafı da stimullaşdı, qaz, işıq, su, rabitə, yol və digər infrastruktur sahələrin genişlənməsi təmin edildi, kənd ərazilərinin sosial siması kökündən dəyişdi. Həmin illərdə kənd təsərrüfatı respublika iqtisadiyyatının aparıcı sahəsinə çevrilməklə Ümumi Daxili Məhsulun 30-35 faizi bu bölmənin payına düşürdü. Azərbaycan Respublikası İttifaqın tərəvəz bazası hesab olunurdu. Heydər Əliyevin Azərbaycan Respublikasına həmin dövrdə rəhbərliyi sayəsində əldə edilən nailiyyətlər hörmətli Prezidentimiz İlham Əliyev cənablarının "Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 85 illik yubileyi haqqında" Sərəncamında öz əksini tapmışdır. Sərəncamda deyilir:"1969-1982-ci illərdə həyatımızın bütün sahələrində baş vermiş köklü dəyişikliklər öz miqyasına görə Azərbaycanın quruculuq salnaməsində ən dolğun səhifələri təşkil edir. Ölkəmizin müstəqilliyinin və dünya iqtisadiyyatına inteqrasiya proseslərinin hazırkı möhkəm təməli Heydər Əliyev tərəfindən həmin illərdə yaradılmış potensiala əsaslanır". Hesab edirəm ki, hörmətli Prezidentimiz İlham Əliyev cənablarının Ulu öndər Heydər Əliyevin hakimiyyətinin birinci dövrünü bu qədər dərindən, əhatəli və əsaslı əks etdirən fikri Ümummilli liderin 1969-1982-ci illərdəki fəaliyyətinə verilən ən düzgün və yüksək qiymətdir.

Onu da qeyd etmək lazımdır ki, Heydər Əliyevin Azərbaycan Respublikasında həyata keçirdiyi möhtəşəm quruculuq işləri, yüksək idarəçilik qabiliyyəti, dövlətçiliyi inkişaf etdirmək bacarığı və rəhbər işçi kimi böyük potensiala malik olması İttifaq rəhbərliyinin diqqətini əbəs yerə cəlb etməmişdi. Məhz buna görə Heydər Əliyev 1982-ci ildə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edildi. Heydər Əliyev bu vəzifədə işlədiyi qısa müddət ərzində İttifaqda mövcud olan ən problemli sahələrin inkişafını, o cümlədən dünyanın ən böyük magistralı olan BAM-ın(Baykal-Amur Magistralı) tikintisini təmin edirdi. Heç də təsadüfi deyil ki, bu günlərdə BAM-ın istifadəyə verilməsinin 30 illiyi münasibəti ilə Rusiya Federasiyasının Prezidenti cənab Putinə məruzə edilərkən bu magistralın tikintisində Heydər Əliyevin əzmkarlığı və böyük əməyi xüsusi olaraq vurğulandı. Heydər Əliyev Azərbaycandan kənarda olsa da həmin illərdə respublikamızda baş verən proseslərlə daim maraqlanır, problemlərin həllində köməklik göstərir və respublikamızın dinamik inkişafı üçün əlindən gələni edirdi.

Heydər Əliyev bir müddət məlum səbəblərə görə Moskvada yaşadıqdan sonra SSRİ adlı imperiyanın məhv olacağına tam əmin olduğundan öz ölkəsində və doğma diyarı olan Naxçıvanda yaşamağa üstünlük verdi və 1990-cı il iyulun 22-də Naxçıvana gəldi. Həmin vaxtlar blokada şəraitində olan Naxçıvan həm ermənilərlə müharibə edir, həm də yaranmış iqtisadi çətinlikləri aradan qaldırmağa çalışırdı. Belə bir vəziyyətdə tanınmış siyasi xadim, həmişə vətəni və xalqı üçün həvəslə çalışmış Heydər Əliyev Azərbaycan Respublikasının müstəqil bir dövlət kimi fəaliyyət göstərməsi naminə əsl mücadiləyə qalxdı. Bu məqsədlə də Naxçıvan əhalisi onu Naxçıvan Muxtar Respublikasının və Azərbaycan SSR-nin Ali Sovetinə deputat seçdi. Heydər Əliyev sessiyalarda Dağlıq Qarabağ problemi ilə əlaqədar Bakı rəsmilərinin yeritdiyi siyasəti və Moskvanın mövqeyini kəskin tənqid edir, SSRİ-nin tezliklə dağılacağını bəyan edirdi. Lakin səbatsız iqtidar bu fikirlərə məhəl qoymur, Kremlə sədaqət nümayiş etdirirdi. Buna baxmayaraq Heydər Əliyev müstəqil Azərbaycan Respublikasının yaradılması üçün mübarizəsini davam etdirirdi. 1990-cı ilin noyabr ayının 17-də Muxtar Respublikanın Ali Sovetinin birinci sessiyasında Heydər Əliyevin təşəbbüsü ilə doğma Azərbaycanımızın üçrəngli bayrağı qaldırıldı və bununla da həmin vaxtdan müstəqilliyimizin ikinci dəfə əsası qoyuldu. Bundan başqa onun təklifi ilə Muxtar Respublikanın adından "Sovet Sosialist" sözləri çıxarıldı və Naxçıvan MR Ali Soveti Ali Məclis adlandırıldı. Habelə, dekabrın 31-i Dünya azərbaycanlılarının həmrəylik günü elan edildi. Naxçıvan əhalisi Heydər Əliyevə böyük inam və ümid bəsləyərək onun Muxtar Respublikaya rəhbərlik etməsini arzu edirdi. Xalqın bu istəyi 1991-ci il sentyabrın 3-də reallaşdı və Heydər Əliyev Muxtar Respublikanın Ali Məclisinə sədr seçildi. Ali Məclisin sədri kimi o, İlk öncə ağır günlərini yaşayan Naxçıvanın vəziyyətini yüngülləşdirmək üçün qardaş Türkiyə və İranla əlaqələri yaxşılaşdırıb kömək əldə etdi. Muxtar Respublikanın gələcək taleyinin iqtisadiyyatın bazar münasibətləri əsasında inkişaf etməsində görən Ulu öndər tezliklə islahatların həyata keçirilməsini önə çəkdi. Dövlətçilik, qayda-qanun möhkəmləndi, vəzifə sahiblərinin və bütün işçilərin məsuliyyəti artırıldı. Muxtar Respublikada bütün qüvvələr və imkanlar əhalinin rifah halının yaxşılaşmasına və təhlükəsizliyin təmin edilməsinə səfərbər olundu. Azərbaycan Respublikasında ilk dəfə iqtisadi islahatlar Muxtar Respublikanın aqrar sahəsində başladı. Çox uğurla həyata keçirilən bu təxirəsalınmaz tədbirlər tezliklə öz bəhrəsini verdi və Naxçıvanda siyasi və iqtisadi vəziyyət getdikcə stabilləşməyə başladı. Bununla da ermənilərin Muxtar Respublikaya hücumlarını mərdliklə dəf etməyə və cəbhədə sakitliyin bərqərar olmasına imkan yarandı.Məhz Heydər Əliyevin əzmkarlığı və həyata keçirdiyi uzaqgörən siyasəti nəticəsində Naxçıvan Muxtar Respublikası düşdüyü çətin vəziyyətdən çıxmağa başladı. Bununla da nəinki Naxçıvanın Muxtar Respublika kimi, həm də Azərbaycanın müstəqil dövlət kimi məhv olmaqdan qurtulmasına gedən yol Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvandan başladı.

***- Müstəqilliyimizin yenidən bərpasının Heydər Əliyev dövrünü Azərbaycanın xilası kimi dəyərləndirə bilərikmi?***

- 1991-ci il 18 oktyabr tarixində Bakıda Azərbaycan Respublikası ikinci dəfə öz müstəqilliyini və suverenliyini elan etdi. Bu tarix isə elə bir dövrə təsadüf etmişdir ki, bir tərəfdən mənfur qonşumuz Ermənistan separatçılıq siyasəti yürüdərək ərazi iddiası ilə bizi müharibəyə cəlb etmiş, digər tərəfdən isə yeni yaradılmış suveren dövlətə liderlik xüsusiyyətlərinə malik olmayan, siyasi hadisələrə qiymət vermək, gələcəyi görmək və proqnozlaşdırmaq imkanlarından məhrum olan, adi vəziyyətdən belə çıxış yolu tapmağa qadir olmayan şəxslər rəhbərlik edirdi. Belə vəziyyət cəbhədə gərginliyi daha da artırmaqla yanaşı hakimiyyət uğrunda mübarizəni də qızışdırırdı. Bundan istifadə edən Ermənistan silahlı qüvvələri havadarlarının köməyi ilə Dağlıq Qarabağdan azərbaycanlıları zor gücünə qovur və etnik təmizləməmə aparırdılar. Hakimiyyətdə olanlar isə xalqı səfərbər edib bunun qarşısını ala biləcək tədbirlər görmək gücündə deyildi və aciz durumda idi. Bundan azğınlaşan erməni quldurlar isə 1992-ci ilin fevralında insanlığa sığmayan Xocalı soyqırımı dəhşətlərini törətdilər və şəhər yerlə yeksan edilərək 613 günahsız azərbaycanlı görünməmiş vəhşiliklə qətlə yetirildi, yüzlərlə insan şikəst oldu, əsr götürüldü və itkin düşdü. Həmin ilin may ayında Azərbaycanın musiqi beşiyi olan Şuşa şəhəri erməni separatçıları tərəfindən işğal olundu. Özünü xalqın aparıcı qüvvəsi hesab edən müsavat və xalq cəbhəsi cütlüyü bundan öz xeyrinə yararlanaraq hakimiyyəti zor tətbiq etməklə tezliklə ələ aldılar. Ancaq bu hakimiyyətdə təmsil olunanların dövlətçilik və idarəetmə təcrübəsi yox idi, onlar öz işlərini günün tələbinə uyğun qurmur, hadisələri düzgün qiymətləndirmir, nə cəbhədə, nə də dövlət quruculuğunda təsirli tədbirlər görə bilmədiklərindən ölkədə hərc-mərclik və xaos baş alıb gedirdi. Bu da erməni silahlıları tərəfindən Dağlıq Qarabağa qonşu yeddi rayonun zəbt edilməsinə şərait yaratdı.

Artıq müstəqil Azərbaycan Respublikası öz tarixinin ən ağır çağlarını yaşayırdı. Bir tərəfdən Ermənistanla aparılan müharibə, bir tərəfdən iqtisadiyyatın iflic vəziyyətə düşməsi, bir tərəfdən də hakimiyyətdə olanların təcrübəsizliyi və səriştəsizliyi hakimiyyətə qarşı narazılığı artırmaqla yanaşı Azərbaycanın müstəqilliyini təhlükə qarşısında qoymuşdu.

Bunun məntiqi nəticəsi kimi 1993- cü il iyunun 4-də Gəncədə iqtidara tam etimadsızlıq göstərilərək qiyam baş verdi, qardaş qanı axıdılmaqla demək olar ki, vətəndaş müharibəsi başlandı. Vəziyyətin daha kəskin xarakter alacağından qorxuya düşən və heç bir əməli tədbir görməyi bacarmayan iqtidar rəhbərləri məsuliyyətdən yayınmaq üçün bir-birinin ardınca istefa verməklə Heydər Əliyevi Azərbaycan Respublikasında rəhbər vəzifəyə dəvət etməyə məcbur oldular. Heydər Əliyev onların bu təkliflərini qəbul etmirdi, vəziyyət isə getdikcə daha da pisləşirdi. Bunu görən Azərbaycan xalqı böyük dövlətçilik təcrübəsi olan, tanınmış siyasi xadim Heydər Əliyevi təkidlə ikinci dəfə Azərbaycan Respublikasına rəhbərliyə dəvət etdi. Xalq özünün sevimli oğluna etimad edir və inanırdı ki, yalnız Heydər Əliyev bu vəziyyətdən çıxış yolu tapa bilər və Azərbaycan Respublikasının müstəqilliyini qoruyub saxlaya və inkişaf etdirə bilər.

Xalqın çağırışını qəbul edən Heydər Əliyev 1993-cü il iyunun 15-də ölkənin Ali qanunverici orqanının sədri, bir neçə ay sonra isə Azərbaycan Respublikasının Prezidenti seçildi. Qısa zaman kəsiyində baş vermiş tarixi hadisələr, faciələrimiz parlamentin müzakirəsinə çıxarıldı, onlara hüquqi-siyasi qiymət verildi. Separatçı ermənilər tərəfindən başlanmış Ermənistan- Azərbaycan müharibəsində 1994-cü il mayın 12-də atəşkəsə nail olunması onun uzaqgörən siyasəti nəticəsində mümkün oldu. Bundan sonra ölkədə siyasi və iqtisadi sabitlik bərqərar oldu, siyasi sistemin təkmilləşdirilməsi istiqamətində möhkəm addımlar atıldı və müstəqil Azərbaycan Respublikasının yeni Konstitusiyası qəbul olundu. Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən düşünülmüş tədbirlər nəticəsində əvvəlki iqtidarların dövründən başlayan sosial-iqtisadi tənəzzülün qarşısı alındı. Təbii ki, bütün bunlar elə də asan başa gəlmədi. Azərbaycanın inkişafını, Heydər Əliyevin hakimiyyətdə olmasını istəməyən qüvvələr 1994 və 1995-ci illərdə dövlət çevrilişinə cəhdlər etmiş, terror aktları törətmək istəmişlər. Lakin Azərbaycan xalqının və onun liderinin əleyhinə yönəlmiş bu dövlətə və insanlığa zidd hərəkətlərin qarşısı vaxtında və yüksək peşəkarlıqla alındı.

Heydər Əliyev müstəqil və suveren Azərbaycanın daxili məsələlərini ustalıqla həll etməklə yanaşı xarici siyasətini də formalaşdırmağa başladı. Əvvəlki hakimiyyətlərin dövründə populist açıqlamalar, qeyri-real yanaşmalar nəticəsində qonşu ölkələrlə pozulmuş münasibətlər qaydasına salındı. Ümummilli liderin çoxsaylı xarici səfərləri ilə Azərbaycanın dünyanın öndə gedən dövlətlərlə xoşniyyətli əlaqələri yaradılaraq möhkəmləndi və respublikamıza uğur gətirən və bu gün də davam etdirilən xarici siyasət xəttinin tətbiqinə başlandı. Azərbaycan həm Rusiya və həm də ABŞ və Avropa ölkələri ilə yaxın qonşuluq, dostluq və strateji tərəfdaşlıq münasibətləri yaratmağa nail oldu. Türkiyə ilə "bir millət-iki dövlət" prinsipi əsasında əlaqələr daha da möhkəmləndi.

Siyasi sabitlik əldə edildikdən və tərəfdaş ölkələrlə əlverişli əlaqələr qurulduqdan sonra ölkə iqtisadiyyatının inkişafı ilə bağlı çox ciddi islahatlara start verildi. Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın gələcəyini müəyyənləşdirən neft strategiyası işlənib hazırlandı və həyata keçirilməyə başlandı. Ciddi təzyiqlərə, bəzi böyük dövlətlərin etirazlarına baxmayaraq Xəzərin Azərbaycan sektorundakı neft yataqlarının işlənməsi ilə bağlı "Əsrin müqaviləsi" imzalandı. Azərbaycanın enerji resurslarını dünya bazarlarına çıxarmaq üçün Bakı-Tbilisi- Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərlərinin tikintisinə başlandı. Bütün bunlar ümummilli liderin özünün dediyi kimi Azərbaycanın müstəqilliyinin dönməz və əbədi olmasını təmin edən mühüm addımlar idi.

Görkəmli şəxsiyyət respublikamıza ikinci rəhbərliyi dövründə Azərbaycan dövlətini və xalqını zamanın ən çətin sınaqlarından məharətlə çıxararaq müasir Azərbaycan dövlətinin qurucusu olduğunu sübut etdi. Heydər Əliyev ikinci dəfə müstəqillik əldə edən Azərbaycanı nəinki qoruyub saxladı, həm də ölkənin ictimai-siyasi, sosial-iqtisadi və mədəni-mənəvi tərəqqisinə nail olmaqla onun dünyanın qabaqcıl ölkələri sırasına çıxmasını təmin etdi. Azərbaycan xalqı və Azərbaycan dövləti qarşısında misilsiz xidmətləri olan Heydər Əliyev sözün əsl mənasında dahi şəxsiyyətdir və qədirbilən xalqımız məhz buna görə Ulu öndəri Azərbaycanın xilaskarı kimi dəyərləndirərək özünün Ümummilli lideri elan etmişdir.

***- Bu gün nəinki Azərbaycanın, Cənubi Qafqaz regionunun güclü siyasi təşkilatına çevrilən Yeni Azərbaycan Partiyasının yaradılması Ulu Öndərin dövlətimiz, xalqımız qarşısında misilsiz xidmətlərindən biridir. O illərə qısaca nəzər salmağınızı istərdik...***

- Öncə vurğulamaq istəyirəm ki, bu günlərdə Ulu öndərin adı ilə bağlı olan Yeni Azərbaycan Partiyasının 29-cu il dönümü Azərbaycanın dövlətçilik tarixinə qızıl həriflərlə yazılan Böyük Zəfər bayramı günlərinə təsadüf etdi. Ölkəmizin siyasi həyatında aparıcı rol oynayan Yeni Azərbaycan Partiyasının yaranması və keçdiyi şərəfli yola nəzər saldıqda görürük ki, bu yol heç də həmişə asan olmamışdır. Belə ki, müstəqilliyimizin ilk illərində ərazilərimizin ardıcıl işğalı, dərin iqtisadi- siyasi böhran və xaos, əhalinin sosial durumunun getdikcə ağırlaşması ölkədə həyatı iflic vəziyyətinə salmışdı. Həmin dövrdə respublikamızda 30-a yaxın siyasi partiya, ictimai təşkilat və hərəkat mövcud olsa da onlar xalqı səfərbər edəcək qədər sosial bazaya malik deyildilər və aralarında xalqın ümumi mənafei naminə birlik yox idi. Belə bir vaxtda müstəqilliyimizin qorunub saxlanmsını təmin etmək üçün xalqın onun liderinə inanıb arxasınca gedəcək lideri olan bir partiyaya ehtiyacı vardı. Bu lider isə heç şübhəsiz ki, Azərbaycan xalqının Böyük oğlu, dünya şöhrətli tanınmış siyasi xadim Heydər Əlirza oğlu Əliyev idi.

Bunu nəzərə alaraq 1992-ci il oktyabrın 16-da respublikamızın 91 nəfər tanınmış ziyalısı "Əlincə" cəmiyyətinin nəşr etdirdiyi "Səs" qəzeti vasitəsilə ulu öndərə "Azərbaycan Sizin sözünüzü gözləyir" - deyə müraciət etdi. Müraciətdə Heydər Əliyevə xitabən deyilirdi: "Uzun illər əldə etdiyiniz dövlət quruculuğu təcrübələrinizə əsaslanaraq, Siz, qısa müddətdə Azərbaycanda geniş xalq kütləsini əhatə edəcək çox böyük, güclü, nüfuzlu və işlək bir partiya yaratmağa qadirsiniz. Buna görə də Azərbaycanın demək olar ki, bütün bölgələrində aparılan ictimai rəy sorğularının nəticələrinə və bizim təşkilat komitəsinə daxil olan minlərlə şifahi və yazılı vətəndaş təkliflərinə əsaslanaraq belə bir qənaətə gəlirik ki, yaratmaq istədiyimiz Yeni Azərbaycan Partiyasına bu gün rəhbərlik etməyə qadir olan yeganə mütləq lider Siz ola bilərsiniz və yalnız bu halda yaranmaqda olan partiya öz qarşısına qoyduğu məqsədə çatar, respublikanın bütün zümrələrindən olan xalq kütləsini öz ətrafında birləşdirərək Azərbaycanın siyasi, iqtisadi həyatında mövcud olan boşluğu dolduracaq, dövlət quruculuğu işlərində öz layiqli töhfəsini verə biləcək. Əminik ki, Yeni Azərbaycan Partiyası müdrik ağsaqqalımız Heydər Əliyevin ətrafında birləşərək dərin zəkalı, təmiz əxlaqlı, yüksək mədəniyyətli, müstəqil düşüncəli, milli qürurlu peşəkar insanların siyasi partiyasına çevriləcəkdir."

Bu müraciətdən sonra bütün Azərbaycan böyük ümidlə gözünü Naxçıvana dikərək öz Böyük oğlu Heydər Əliyevdən cavab gözləyirdi. Görkəmli dövlət xadimi Azərbaycan ziyalılarının müraciətinə oktyabrın 24-də "Yeni müstəqil Azərbaycan uğrunda" çağrışı ilə başlayan cavab verdi.

Ulu öndər cavab məktubunda Azərbaycanın bütövlüyünün təhlükə qarşısında olması, ölkədə hökm sürən hərc-mərclik, vətəndaş qarşıdurması, insanların yaşayış səviyyəsinin dözülməzliyi ilə bağlı ziyalıların narahatlığını bölüşməklə yaranmış vəziyyəti təhlil edərək AXC-Müsavat hakimiyyətinin əsl mahiyyətini, vəziyyətdən çıxış yollarını göstərdi. Məktubda vurğulanırdı ki, ölkə qarşısında duran vəzifələr - müstəqil dövlətin qurulması, milli-demokratik dövlət atributlarının formalaşdırılması, Azərbaycanın suverenliyinin, təhlükəsizliyinin və ərazi bütövlüyünün qorunması, vətəndaşların dinc, firavan həyat səviyyəsinin təmin edilməsi, iqtisadi böhranın aradan qaldırılması və sair taleyüklü məsələlərdir. Görkəmli siyasi xadim Yeni Azərbaycan Partiyasının yaradılmasının obyektiv zərurətdən doğduğunu vurğulayaraq onun fəaliyyətində fəal iştirak etməyə hazır olduğunu bəyan etdi. Heydər Əliyevin bu cavabından və ölkənin sağlam qüvvələrinin Ulu öndərin ətrafında sıx birləşmək niyyətindən təşvişə düşən o dövrkü iqtidar oktyabrın 24-də Naxçıvanda dövlət çevrilişinə cəhd göstərdi. Xalq Cəbhəsinə məxsus silahlı dəstələr Muxtar Respublika Daxili İşlər Nazirliyinin, Televiziya və Radio Verilişləri Komitəsinin, Rabitə idarəsinin, şəhər elektrik şəbəkəsinin binalarını zəbt edib Muxtar Respublika hakimiyyəti əleyhinə bəyanat verdilər. Buna baxmayaraq 50 mindən çox insan qısa bir vaxtda Heydər Əliyevi dəstəkləmək üçün Ali Məclis binasının qarşısına gəldi. Xalq Cəbhəsinin silahlıları parlament binasına hücum etməkdən çəkindilər. Bakıda hazırlanmış xüsusi cəza dəstəsi Naxçıvana gəlməyə cəsarət etmədi. Əhali silahlı dəstələri dövlət idarələrindən qovub çıxardı. Bu hadisələr barədə Heydər Əliyev belə demişdir: "Biz Naxçıvanda ağır şəraitdə yaşadığımız zaman - bəziləri bunu da bizə çox görürdülər, - Naxçıvanda dövlət çevrilişi etmək istədilər. Xalq Cəbhəsinin böyük bir silahlı dəstəsi .Daxili İşlər Nazirliyinin binasını zəbt etdi. Onların bəzi nümayəndələri televiziya ilə xalqa müraciət edib bizi devirmək çağrışları ilə çıxış etdilər. Ancaq heç bir şey edə bilmədilər. Çünki xalq bizimlə idi."

Heydər Əliyevin yeni partiyanın yaradılması ilə bağlı ziyalıların müraciətinə verdiyi müsbət cavab onun böyük məsuliyyəti öz üzərinə götürməkdən çəkinməyən, cəsarətli və qətiyyətli lider olduğunu bir daha təsdiqlədi. Bütün təzyiqlərə baxmayaraq, tez bir zamanda Azərbaycanın hər yerində yeni partiyanın təsis konfransına hazırlıq işlərinə başlanıldı. AXC-Müsavat hakimiyyəti Yeni Azərbaycan Partiyasının təsis konfransının Bakıda keçirilməsinə imkan verməyərək çoxlu manelər törədirdi. Buna baxmayaraq partiyanın təsis konfransı 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində keçirildi. Konfrans Azərbaycanın müxtəlif regionlarını təmsil edən təşəbbüs qruplarının 550 nəfərdən çox nümayəndəsinin iştirakı ilə Naxçıvan Dövlət Dram Teatrının binasında keçirildi. Konfrans YAP-ın təsis olunması haqqında qərar qəbul etdi. Partiyanın Heydər Əliyev tərəfindən hazırlanmış Proqram və Nizamnaməsi müzakirə olunaraq qəbul edildi. Ulu öndər yekdilliklə partiyanın sədri seçildi və Təşkilatın rəhbər orqanları formalaşdırıldı. Heydər Əliyev sonralar həmin günü belə xatırlayırdı: "Biz 1992-ci ilin şaxtalı bir günündə, istilik olmayan bir zalda, Naxçıvan Dövlət Dram Teatrının binasında paltoda və çoxları papaqda oturaraq ilk konfransımızı keçirirdik. Üşüyürdük, əlimizi əlimizə sürtürdük. Amma iradəmiz yüksək idi, iradəmiz güclü idi. Gələcəyə çox nikbinliklə baxırdıq... Məni sevindirən odur ki, ağır şəraitdə Naxçıvanda keçirdiyimiz konfrans ölkənin və partiyanın böyük inkişaf yolunu təmin etdi". Ulu öndərin o zamankı mürəkkəb durum və yaranmış təhlükəli vəziyyətdən çıxış yolunu göstərən, onun müdrik tövsiyələrini əks etdirən cavab məktubu sonralar YAP-ın fəaliyyətinin əsas prinsip və istiqamətlərini təşkil etdi.

Ölkəmizin siyasi həyatında aparıcı rol oynayan Yeni Azərbaycan Partiyası Heydər Əliyevin rəhbərliyi altında tezliklə təşkilatlandı. Ulu öndərin adını daşıyan bu partiya yarandığı gündən azərbaycançılıq və dövlətçilik mövqeyindən çıxış edərək öz siyasi platforması, qətiyyətli mövqeyi sayəsində çox qısa zamanda vətənpərvər insanların siyasi istinadgahı kimi əsl ümumxalq partiyasına çevrildi.

Heydər Əliyevin Azərbaycan xalqının təkidli tələbi ilə tezliklə ölkə rəhbərliyinə yenidən qayıdışı ilə Yeni Azərbaycan Partiyası müxalifət partiyasından iqtidar partiyasına çevrildi. Ölkənin hakim partiyası kimi YAP müstəqillik tariximizdə mühüm rol oynadı. Ulu öndərin milli məfkurəsindən güc alan bu partiya qısa zamanda ölkədə sabitliyi bərqərar edən, demokratik dəyərlərə üstünlük verən, hüquqi, demokratik, dünyəvi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesinə layiqli töhfələr verən real siyasi qüvvə kimi özünü təsdiq etdi.

Heydər Əliyevə olan dərin hörmət və etibar sayəsində öz sıralarında yüz minlərlə insanı birləşdirən Yeni Azərbaycan Partiyası bu gün həqiqətən də yalnız Azərbaycanın deyil, həm də bütün Cənubi Qafqaz regionunun güclü və beynəlxalq aləmdə hakimiyyət partiyaları tərəfindən qəbul edilən nüfuzlu siyasi təşkilatıdır. Məhz bu partiyanı yaratmağı və inkişaf etdirməyi öhdəsinə götürməklə Ulu Öndər Azərbaycan xalqı və dövləti qarşısında göstərdiyi çoxsaylı misilsiz xidmətlərdən birini də uğurla həyata keçirmişdir.

***-2003-cü ildən başlanan Heydər Əliyev davamını necə ümumiləşdirirsiniz? Ümummilli Liderin xalqa"Mən Ona özüm qədər inanıram" çağırışı bugünkü reallıqlarda özünü necə doğruldub?***

- Dahilərin böyüklüyü ondadır ki, onlar hər şeyin əvvəlini bildikləri kimi, sonunu da görür və dərk edirlər. Heydər Əliyev də məhz belə dahilərdən idi. Heydər Əliyevin son qərarı əslində Azərbaycana son borcu, son xidməti idi. Bu qərardan Azərbaycan dövlətinin taleyi asılı idi. Heydər Əliyev bu son borcunu da şərəflə yerinə yetirdi. Onun 2003-cü il 1 oktyabr tarixində doğma xalqına ünvanladığı son müraciəti vətənə ləyaqətlə xidmətin son nümunəsi idi. Ulu öndərin tarixi müraciətinin sonunda xalqa müəyyənləşdirdiyi siyasəti davam etdirə biləcək dəqiq ünvanı da göstərirdi: "Üzümü sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Ulu öndərin bu tarixi müraciətindən keçən on səkkiz il onun dediklərinin reallıqla dərindən uzlaşdığını və söylədiyi fikirlərin yüksək dərəcədə həqiqət olduğunu bir daha göstərdi. Keçən dövr ərzində dörd dəfə Azərbaycan xalqının əksəriyyətinin böyük dəstəyini qazanaraq Prezident seçilən İlham Əliyev Ümummilli liderin layiqli varisi olduğunu və Azərbaycan Respublikasını gündən-günə daha yaxşı gələcəyə apardığını sübut etdi.

Belə ki, bünövrəsi Ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuş müstəqil Azərbaycan Respublikası artıq on səkkiz ildir ki, hörmətli Prezidentimiz İlham Əliyev tərəfindən uğurla idarə olunur və ölkəmiz beynəlxalq aləm və dünyanın aparıcı ölkələri tərəfindən regionun lider dövləti kimi qəbul olunur. Bu isə təsadüfi deyildir. Son 18 il ərzində Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf etmiş, ümumi daxili məhsul üç dəfədən çox artmışdır. Genişmiqyaslı islahatlar nəticəsində Azərbaycanda münbit sərmayə iqlimi yaradılmışdır. Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan 190 ölkə arasında 28-ci yerdə qərarlaşıb. Azərbaycan iqtisadiyyatına 280 milyard ABŞ dolları həcmində sərmayə yatırılıb ki, bunun da yarısı xarici sərmayədir. Strateji valyuta ehtiyatlarımız xarici dövlət borcumuzdan 6 dəfə çoxdur.

Ötən 18 il ərzində sosial məsələlərə xüsusi diqqət yetirilmiş və bunun nəticəsində maaşlar təxminən 7 dəfə, pensiyalar 10 dəfə artmış, yoxsulluq 49 faizdən 6 faizə düşmüş, 2 milyona yaxın yeni iş yerləri açılmaqla işsizliyin səviyyəsi 6 faizə enmişdir. Ölkə üzrə qazlaşdırma 51 faizdən 95 faizə, fasiləsiz içməli su ilə təminat 20 faizdən 67 faizə çatdırılmış, Oğuz-Qəbələ-Bakı su xətti çəkilmişdir.

Cənab İlham Əliyevin ölkəyə rəhbərliyə başladığı ilk vaxtlardan başlayaraq elmi-texnoloji inkişafa xüsusi diqqət verməsi bu sahədə uğurlu nəticələr əldə etməyə imkan vermişdir. Bunun sayəsində ölkəmizdə iqtisadiyyatın yeni sahələrinin - müdafiə və kosmos sənayesinin formalaşması, dünyanın iri neft və qaz kəmərlərinin tikilib istifadəyə verilməsi, innovasiyaların tətbiqinə əsaslanan sənaye və aqrar parkların yaradılması və onların ən yeni texnologiyalardan istifadə etməklə daxili bazarın tələbatını ödəyən və ixrac potensialını genişləndirən müxtəlif adda və çeşiddə rəqabət qabiliyyətli məhsullar istehsalına başlaması Azərbaycanın uzun müddətli dayanıqlı və davamlı inkişafına zəmin yaradır. Bu isə o deməkdir ki, ölkə rəhbəri dünyada baş verən qlobal proseslərə uyğun müasir çağırışları təmin edən və gələcək inkişafa imkan verən sosial-iqtisadi siyasət formalaşdırır və onun həyata keçirilməsinə yönəlmiş tədbirlər görür.

Hörmətli Prezidentimizin formalaşdırdığı və həyata keçirdiyi iqtisadi siyasətin əsasını isə iqtisadiyyatın şaxələndirilməsi, neft-qaz sektoru ilə yanaşı qeyri neft sektorunun da elmi-texnoloji əsaslarla innovativ inkişafı təşkil edir. Bu məqsədlə dövlət başçısı qeyri-neft sektorunun prioritet sahələri olan turizm və aqrar sahənin inkişafına daim xüsusi diqqət yetirir və bu sahələrdə uğurlu nəticələr əldə etmək üçün möhkəm maddi-texniki baza və infrastrukturun yaradılması istiqamətində təsirli tədbirlər görülür. Bunun nəticəsidir ki, son vaxtlar ölkəmizə böyük turist axını başlamış və hər il milyonlarla turist respublikamızın səfalı guşələrində istirahət etməyə üstünlük verirlər. Aqrar sahədə həyata keçirilən bu və digər tədbirlər nəticəsində kənd təsərrüfatı istehsalı 2 dəfədən çox artmışdır.

Əlbəttə, İlham Əliyev cənablarının 18 illik Prezidentliyi dövründə istər daxili və istərsə də xarici siyasət sahəsində çoxsaylı uğurlar əldə edilmiş, bu qısa müddətdə ölkəmiz misli görünməmiş sürətli inkişaf yolu keçmiş, respublikamızda formalaşmış və uğurla həyata keçirilən strategiya hazırda da davam edir. Bununla belə hesab edirəm ki, 18 ildə əldə etdiyimiz möhtəşəm uğurların zirvəsində Müzəffər Ali Baş Komandan, ölkə Prezidenti İlham Əliyev cənablarının rəhbərliyi ilə 44 günlük Vətən Müharibəsində şanlı Azərbaycan Ordusunun Ermənistan ordusunu darmadağın edərək diz çökməyə məcbur etməklə qazandığı parlaq qələbə dayanır. Bu qələbə ilə Ulu Öndərin siyasi varisi İlham Əliyev cənabları ölkənin ərazi bütövlüyünü və suverliyini təmin edən Prezident kimi qızıl həriflərlə Azərbaycan tarixində yeni bir səhifə açdı. Eyni zamanda qazandığımız bu möhtəşəm qələbə bir daha sübut etdi ki, Qarabağ Azərbaycanın əzəli torpağıdır və Azərbaycan xalqı vətənini və xalqını sevən dövlət başçısının rəhbərliyi ilə öz ərazi bütövlüyünü təmin etməyə və onu dünyanın ən gözəl diyarına çüvirməyə qadirdir. Məhz İlham Əliyev cənablarının rəhbərliyi ilə 30 ildən çox işğala son qoyulması müstəqil Azərbaycan dövlətinin qarşısında duran bir nömrəli vəzifənin uğurla yerinə yetirilməsini təmin etdi. Bu qələbə həm də Azərbaycan xalqının yenilməz qürurunu özünə qaytardı, xalqımızın başını ucaltdı. Hazırda ölkəmizin qarşısında duran ən mühüm missiya erməni işğalından azad etdiyimiz əraziləri gündən-günə sürətlə qloballaşan dünyanın ən müasir çağrışlarına uyğun olaraq yenidən qurmaq, bu ərazilərə Böyük Qayıdışı qısa müddət ərzində təmin etməkdir.

Şübhə etmirik ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının rəhbərliyi altında xalqımız bu şərəfli missiyanın da öhdəsindən tezliklə gələcək və bütöv Azərbaycan Respublikası bünövrəsi Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan inkişaf yolunu bundan sonra da uğurla davam etdirəcəkdir.

Bütün bunlar və müstəqilliyimizin son 18 ilində əldə etdiyimiz digər uğurlar onu deməyə əsas verir ki, Ümummilli Liderin xalqa "Mən Ona özüm qədər inanıram" çağırışı bugünkü reallıqda özünü ağlasığmaz dərəcədə artıqlaması ilə doğruldur. Məhz İlham Əliyevin Prezident kimi Azərbaycan Respublikasına rəhbərlik etdiyi bu 18 ildə qazanılan davamlı uğurlar Ulu Öndərin "Nə qədər ki, Azərbaycan var, mən də varam" fikrini də böyük inamla təsdiq edir.

# Ulu Öndər hakimiyyətə qayıdışı ilə müstəqilliyimizi əbədiləşdirdi

## Xətai Rayon İcra Hakimiyyətinin və Yeni Azərbaycan Partiyası Xətai rayon təşkilatının birgə təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin anım günü ilə bağlı tədbir keçirilib



**Dekabrın 9-da Xətai Rayon İcra Hakimiyyətinin və Yeni Azərbaycan Partiyası Xətai rayon təşkilatının birgə təşkilatçılığı ilə müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin anım günü ilə bağlı tədbir keçirilib.**

Tədbir iştirakçıları öncə Heydər Əliyev Parkında Ulu Öndərin abidəsi önünə qızılgül dəstələri qoyublar. Sonra YAP Xətai rayon təşkilatının qərargahında Xətai rayon orta ümumtəhsil məktəblərinin şagirdləri arasında keçirilən ümummilli lider Heydər Əliyevin anım gününə həsr olunmuş "Dahi Lider" adlı rəsm sərgisinin nümayişi olub.

YAP Xətai rayon təşkilatının akt zalında davam edən tədbirdə ümummilli lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhidlik zirvəsinə ucalan Vətən oğullarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Tədbiri giriş sözü ilə açan YAP Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə ulu öndər Heydər Əliyevin müasir Azərbaycan dövlətinin yaranması və inkişafında əvəzsiz xidmətlərindən bəhs edib: "Ümummilli Lider 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra düşünülmüş və məqsədyönlü siyasəti ilə Azərbaycanı müstəqilliyinin bərpasının ilk illərinin xaosundan, anarxiyasından, vətəndaş müharibəsindən xilas etdi. Azərbaycan qısa müddətdə sabitlik diyarına çevrildi. Ulu öndər



Heydər Əliyev hələ hakimiyyətinin birinci dövründə Azərbaycanın müstəqil gələcəyini düşünərək zəruri olan bazanın formalaşdırılmasına məhz həmin illərdə başlamışdır. İqtisadi təməlin qoyulması, kadr hazırlığının yüksək səviyyədə təşkili, ən əsası dövlətin müstəqilliyinin qarantı olan ordunun inkişafına xidmət edəcək mühüm addım kimi qiymətləndirilən Cəmşid Naxçıvanski adına hərbi liseyin yaradılması və s. bu kimi biri-birindən əhəmiyyətli addımlar gələcək inkişafımızın əsası oldu. Ümummilli lider Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra bu işlərin həyata keçirilməsinin davamlılığını yüksək səviyyədə təmin etdi. Bu reallıq da hər zaman böyük inam və qətiyyətlə bildirilir ki, ulu öndər Heydər Əliyev sovetlər birliyi dövründə Azərbaycanı qabaqcıl respublikalar sırasına çıxardığı kimi, 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı ilə müstəqilliyi əbədiləşdirən uğurlu bir yolun başlanğıcını qoydu."

"Ümummilli Liderin dövlətimiz, xalqımız qarşısındakı xidmətlərindən saatlarla, günlərlə danışmaq olar" söyləyən Vüqar Rəhimzadə bildirib ki, ulu öndər Heydər Əliyev 2003-cü ildə inamın, etimadın düzgün ünvanını göstərdi. Son 18 ildə ulu öndər Heydər Əliyevin siyasi kursunu bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyev tariximizin Zəfər səhifəsini yazdı, ərazi bütövlüyümüz bərpa olundu. Bütün bu uğurlar Heydər Əliyev siyasətinin təntənəsidir. Qarşıda Azərbaycanı daha möhtəşəm uğurlar gözləyir.

Xətai Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Quluyev ulu öndər Heydər Əliyevin hakimiyyətinin birinci dövründə bugünümüz üçün qurulan möhkəm təməldən danışıb: "Bugünkü Azərbaycan məhz həmin dövrdə yaradılan möhkəm təməl üzərində inkişaf edir, uğurla addımlayır. Ölkənin hərtərəfli inkişafında iqtisadi amilə verilən önəm ulu öndər Heydər Əliyevin hakimiyyətinin hər iki dövrünün səciyyəvi xüsusiyyətidir. Birinci hakimiyyəti dövründə ölkəmizi geridə qalmış respublikadan çiçəklənən, inkişaf edən bir diyara çevirən dahi şəxsiyyət Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra dünya iqtisadi sisteminə inteqrasiyanın, davamlı inkişafın əsası kimi dəyərləndirilən "Əsrin müqaviləsi"nin imzalanmasına nail olmaqla ölkəmizin qarşısında geniş imkanlar açdı."



R.Quluyev ulu öndər Heydər Əliyevin gələcəyimiz olan gənclərin milli ruhda tərbiyəsi, Azərbayana bağlılığı istiqamətində gördüyü işlərdən bəhs edərək bildirib ki, Azərbaycan gəncləri keçmiş ittifaqın ən nüfuzlu ali məktəblərində təhsil almağa göndərildi. Azərbaycan müstəqilliyini yenidən bərpa etdikdən sonra ölkənin dağılmış iqtisadiyyatının bərpasında, Azərbaycanın hərtərəfli inkişafında məhz həmin dövrlərdə sovetlər birliyinin nüfuzlu ali məktəblərində təhsil alan gənclərin potensialından istifadə olundu.

Xətai Rayon İcra Hakimiyyətinin başçısı Azərbaycanın tarixi Zəfərindən bəhs edərək bu uğurumuzda da Azərbaycan gənclərinin torpaq, Vətən sevgisinin əsas amillərdən biri olduğunu bildirib. Ulu öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev daim çıxışlarında bu məqamı bildirir ki, gənclərimiz milli ruhda tərbiyə olunmalı, dövlət maraqlarını hər şeydən üstün tutmalıdırlar.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Mixail Zabelin bildirib ki, fəaliyyətinin mühüm bir dövrü görkəmli siyasi və dövlət xadimi, ümummilli lider Heydər Əliyevlə bağlı olub. Ulu öndər Heydər Əliyev Azərbaycan SSR-nin Birinci katibi işləyərkən onun rəhbərliyi altında çalışmış, o cümlədən Birinci katibin referenti vəzifəsində işləmişdir.

Millət vəkili ulu öndər Heydər Əliyevin Azərbaycanın bu günü və gələcəyi ilə bağlı gördüyü işlərdən geniş bəhs edərək vuğulayıb ki, onun idarəçilik təcrübəsi, siyasi iradəsi, bacarığı, liderlik keyfiyyətləri hər bir çətinliyin öhdəsindən uğurla gəlməsini şərtləndirdi. Bu gün həmin qətiyyəti, siyasi iradəni dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev nümayiş etdirir. 44 günlük İkinci Qarabağ müharibəsində 30 ilin işğalına son qoymaq böyük şücaətin, qəhrəmanlığın, Prezident İlham Əliyevin qətiyyətinin, Azərbaycan ordusunun gücünün, qüdrətinin nəticəsidir.

Azərbaycanın Milli Qəhrəmanı Məzahir Rüstəmovun atası, Xətai Rayon Ağsaqqallar Şurasının sədri, fəlsəfə elmləri doktoru, professor İzzət Rüstəmov ulu öndər Heydər Əliyevlə bağlı saysız-hesabsız xatirələrindən danışıb. Bildirib ki, onun əziz xatirəsi xalqımızın qəlbində daim yaşayacaq. Ümummilli Lider dövləti, xalqını sevən, Azərbaycanın gələcəyini düşünən şəxsiyyət idi. Onun liderlik keyfiyyətləri Azərbaycanın inkişaf yolunda inamla irəliləməsini təmin etdi. İ.Rüstəmov qeyd edib ki, ulu öndər Heydər Əliyevin ideyaları yaşayır, inkişaf edir, Azərbaycanın simasında öz əksini tapır. Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev bu ideyaların uğurla həyata keçirilməsi üçün səylər göstərir, Azərbaycanı zirvələrə yüksəldir.

YAP Xətai rayon təşkilatının Xocalı prospekti 30 ünvanında yerləşən ərazi partiya təşkilatının sədri Vaqif Abbasov ulu öndər Heydər Əliyevin dövlətimiz, xalqımız qarşısındakı misilsiz xidmətlərindən biri kimi bu gün cəmiyyətin avanqard qüvvəsinə çevrilən, 800 minə yaxın üzvü birləşdirən Yeni Azərbaycan Partiyasının yaradılmasından bəhs edərək bildirib ki, Ümummilli Liderin "YAP dünənin, bugünün və gələcəyin partiyasıdır" tezisi bütün dövrlər üçün öz aktuallığını qoruyur.

V.Abbasov vurğulayıb ki, ulu öndər Heydər Əliyev daim partiyada gənclərin təmsil olunmasına çalışırdı. Gənclər YAP-da öz potensial imkanlarını nümayiş etdirmək üçün normal mühit görürlər. Son 18 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə partiya inkişaf edir, nəinki ölkəmizin, regionun aparıcı siyasi təşkilatına çevrilib.

Tədbirdə çıxış edən gənc fəal Ruslan Qasımov bildirib ki, ulu öndər Heydər Əliyevin yaradıcısı olduğu, Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edən Yeni Azərbaycan Partiyasının üzvü olmaq biz gənclər üçün fəxrdir. "Dahi Lider" rəsm sərgisinin qalibi Fidan Rzaquliyeva ulu öndər Heydər Əliyevin uğurlu siyasəti nəticəsində Azərbaycanın keçdiyi inkişaf yolundan bəhs edib. Bildirib ki, Prezident İlham Əliyevin bu siyasi kursu uğurla davam etdirməsi nəticəsində 30 il işğal altında olan torpaqlarımız azad olundu, üçrəngli bayrağımız bu ərazilərimizdə dalğalandı.

Tədbirdə Xətai rayon orta ümumtəhsil məktəblərinin şagirdləri arasında keçirilən ümummilli lider Heydər Əliyevin anım gününə həsr olunmuş "Dahi Lider" mövzusunda keçirilən rəsm sərgisinin qaliblərinə diplomlar verilib. Sonda ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

# Beynəlxalq məhkəmənin qərarları işğalçı Ermənistanın növbəti ifşası oldu




**Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin bərpası uğrunda mübarizəsində haqlı olduğuna şübhə olmayıb. Bu, müxtəlif beynəlxalq təşkilatlar tərəfindən ayrı-ayır tədbirlərdə də etiraf olunub. Azərbaycanın ərazi bütövlüyünün təmin olunması ilə bağlı BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 saylı qətnamələr də bunu təsdiqləyib. Ancaq 28 ildir ki, beynəlxalq vasitəçilərin fəaliyyətsizliyi səbəbindən bu qərarlara əməl olunmurdu. Azərbaycan 44 günlük döyüşlər zamanı beynəlxalq hüququn prinsip və normalarını pozulmaqdan, BMT-nin qətnamələrini isə kağız üzərində qalmaqdan xilas etdi. Bununla da onların nüfuzunu qorudu.**

Azərbaycan tərəfi Vətən müharibəsindən sonra Ermənistanın vurduğu ziyanlar, etnik ayrı-seçkiliyin təbliği ilə bağlı Beynəlxalq Ədalət Məhkəməsinə müraciət etmişdi. Oktyabrın 18-19-da Azərbaycanın iddiası ilə bağlı dinləmələr keçirilib. Qeyd edək ki, Azərbaycan tərəfi "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Beynəlxalq Konvensiyanın pozulmasına görə Beynəlxalq Ədalət Məhkəməsinə müraciət etmişdi. Sənəddə Azərbaycan Ermənistanın məsuliyyətə cəlb olunmasını, rəsmi İrəvandan ölkəyə və xalqa dəymiş ziyanı ödəməyi tələb edib. Məlumata görə, iddia ərizəsində Ermənistanın azərbaycanlılara qarşı milli və ya etnik mənşəyinə görə bir sıra ayrı-seçkilik hərəkətlərinə yol verdiyi və buna davam etməkdə olduğu qeyd edilib.

Yeri gəlmişkən, bu orqan BMT Nizamnaməsinin 92-ci maddəsinə görə ali məhkəmə orqanıdır. Onun qərargahı Niderlandın Haaqa şəhərindəki Sülh Sarayındadır. 1945-ci ildə təsis edilmiş məhkəmə 1946-cı ildə Beynəlxalq Ədliyyə Məhkəməsinin varisi olaraq fəaliyyətə başlayıb. Beynəlxalq məhkəmənin sədrinin öhdəliyi, məhkəməni təşkil edən və tənzimləyən əsas konstitusiya sənədidir. Əsasən 1980-ci ildən başlayaraq inkişaf etməkdə ölkələr daha çox bu quruma müraciət edir. Beynəlxalq Ədalət Məhkəməsi Azərbaycanın iddiası üzrə Ermənistanın təcili tədbirlər görməsinə dair qərar verib. Yuxarıda qeyd etdiyimiz qətnamələri qəbul etmiş BMT-nin məhkəməsinin Ermənistanla bağlı məntiqli hökm çıxaracağı ehtimalı az deyildi. Bu baxımdan məhkəmə Ermənistanda etnik zəmində zoraki çağırışlar edən qruplaşmalar və fərdi şəxslərə qarşı bu dövlətin təcili tədbirlər görməsinə dair qərar qəbul edib. Qərara görə, Ermənistan BMT-nin "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Beynəlxalq Konvensiya çərçivəsində götürdüyü öhdəliklərinə uyğun olaraq, öz ərazisində təşkilatlar və özəl şəxslər tərəfindən də daxil olmaqla, azərbaycanlı milli mənsubiyyəti olan şəxslərə hədəflənmiş irqi ayrı-seçkiliyə təhrik və təşviqin qarşısını almalıdır.

Beynəlxalq Ədalət Məhkəməsi Ermənistanın əsas iddiası və məqsədi olan "müharibə məhbuslarının dərhal geri qaytarılmasına dair iddiası"nı təmin etməyib. Həmçinin Ermənistanın Hərbi Qənimətlər Parkının bağlanmasına dair iddiası da təmin edilməyib. Eyni zamanda, Ermənistanın Azərbaycan tərəfindən müharibə cinayətlərinin araşdırılmasına dair iddiası da təmin olunmayıb.

Ermənistanın ənənəvi hay-küylü iddialının Məhkəmə tərəfindən təmin olunmaması da qanunuyğundur. Çünki Azərbaycan ərazisində "müharibə məhbusları" yoxdur. Azərbaycanda saxlanılan Ermənistan vətəndaşları cinayətkardırlar. Onlar 2020-ci il noyabrın 10-da qəbul edilmiş üçtərəfli bəyanatdan sonra Azərbaycan ərazisinə keçərək, burada pozuculuq, terror və təxribatı işləri ilə məşğul olmağı planlaşdırıblar.

Məhkəmənin Ermənistanın Hərbi Qənimətlər Parkının bağlanmasına dair iddiasını da təmin etməməsi məntiqidir. Çünki o qənimətlər müharibə qanunlarına görə Azərbaycana aiddir. Azərbaycan isə bu parkı yaratmaqla həm də müharibənin acı nəticələrini təbliğ edir. Bir də dünyanın bir sıra dövlətlərin İkinci dünya müharibəsində faşist Almaniyasının məğlubiyyətini əks etdirən çoxsaylı eksponatlar var. Hərbi Qənimətlər Parkı da müharibənin, işğalçının və kapitulyasiyanın rəmzi sayıla bilər.

Ermənistanın Azərbaycan tərəfindən müharibə cinayətlərinin araşdırması iddiası da təmin olunmadı. Bəhs etdiyimiz qətnamələrdə Ermənistanın Azərbaycan torpaqlarını işğal edib və qeyd-şərtsiz həmin ərazilərdən çıxması da vurğulanıb. Bu baxımdan Azərbaycan beynəlxalq ictimaiyyətin 30 ilə yaxın bir müddətdə etmədiyini, beynəlxalq hüquq normalarına uyğun olaraq 44 gündə həyata keçirərək ərazi bütövlüyünü bərpa edib. Odur ki, bu müharibədə başlıca cinayətkar Ermənistandır. O, işğalçılıq siyasətini yürütməklə həm öz vətəndaşlarının, həm də Azərbaycan vətəndaşlarının hüquqlarını tapdayıb, pozub.

Ermənistan etnik ayrı-seçkilik təbliğatı üzərində qurulan bir təşkilat və ya dövlətdir. Onların saxta soyqırımı iddiaları, qonşu dövlətlərin ərazilərinə iddialar və s. bunu təsdiqləyir. Ermənistan türklərə, azərbaycanlılara qarşı fəaliyyət göstərən ASALA, VOMA və FOGA kimi terrorçu qruplarıı dəstəkləyir. Bu cinayətkar dəstələr Azərbaycan torpaqlarının işğalında iştirak ediblər. Ancaq indiyədək cəzalandırılmayıblar. VOMA-nın yaratdığı "könüllü" batalyonların yaradılmasında Rusiya Erməniləri Birliyinin rəhbəri Ara Abrahamyan və Ermənistanın diaspor məsələləri üzrə baş səlahiyyətli nümayəndəsi Zare Sinanyan iştirak etmişdi. Bu təşkilatların niyyətləri "Böyük Ermənistan" xülyasına nail olmaqdır. Onlar iddia edirlər ki, "Keçmişin Böyük Ermənistanı bu gün də Böyük olmalıdır". Bu, Ermənistanın terror və etnik ayrı-seçkiliyi dəstəkləməsinə dair çoxsaylı faktlardan nümunələrdir.

Beləliklə, Beynəlxalq Ədalət Məhkəməsinin qərarını ədalətli saymaq olar. Məhkəmənin qərarı bir daha sübut etdi ki, Ermənistanın irəli sürdüyü iddialar yersiz və əsassızdır. Azərbaycan öz torpaqlarını işğaldan azad edib. Ermənistan işğalçı olduğunu ört-basdır etmək üçün etmək, beynəlxalq ictimaiyyətin diqqətini özünə cəlb edib, əzabkeş rolunu oynamaq üçün məhkəməyə müraciət etmişdi. Onun bu cəhdi uğursuzluğa düçar olub. Rəsmi İrəvan məhkəməyə müraciət etməklə həm də ölkə ictimaiyyətinə özünü işgüzar göstərməyə, cinayətkar əməllərini gizlətməyə çalışıb.

Nəhayət, 1945-ci ildə İkinci Dünya müharibəsi başa çatdıqdan sonra III Reyxin rəhbərləri üzərində Nürnberq prosesi oldu. Onda Faşist Almaniyasının rəhbərləri ittiham olunan tərəf idi. Çünki müharibəni başlamış və beynəlxaq hüququ pozaraq başqa dövlətlərin ərazilərini işğal etmişdi. Bu baxımdan Ermənistanda işğalçı tərəf olduğundan belə məhkəmədə cavabdeh tərəf kimi çıxış etməli idi. Belə düşünmək olar ki, rəsmi İrəvanın iddialarının qəbul edilməməsi də işğalçıya ilk dərsdir...

***Sədrəddin İsmayılov***

---

**"Ermənistanda ağır sosial və siyasi böhranın kökündə bu ölkənin yarıtmaz idarəçiliyi və cəmiyyətin özünün təcavüzkar ideologiyaya aludəçiliyi dayanır. İşğal və təcavüz faktoru ilə ərazi əldə etdiyini, gücləndiyini düşünən və 30 il ərzində xalqı da bu yalanlara inandıran rəsmi İrəvan müharibədən sonra artıq reallığı gizlətməkdən məhrum olub". Bu sözləri SİA-ya açıqlamasında deputat Bəhruz Məhərrəmov deyib.**

Onun sözlərinə görə, hakimiyyətdə kimin olmasına baxmayaraq Ermənistanda sistemin özü saxtakar və təcavüzkar mahiyyət daşıdığı üçün mövcud iqtidar məğlubiyyətdən sonra da xalqı aldatmaq yolunu seçdi: "Bu dəfə Ermənistan hakimiyyəti müharibənin nəticələrinin gizlədilməsi yolu ilə sosial gərginliyin qarşısını alacağını düşünür. Lakin, söhbət insan taleyindən gedirsə, təbii ki, hansısa məhv edilmiş işğalçı əsgərin cəsədinin uzun müddət gizlədilməsi mümkün deyil. Baxın, 1 il əvvəl başa çatmış müharibədə məhv edilən erməni əsgərlərinin cəsədləri hələ də tam şəkildə yaxınlarına təhvil verilməyib və yaxud yeni öldürüldüyü iddia olunan cəsədlərdəki çürüntülər meyitin köhnə olduğunu deməyə əsas verir. Erməniləri də qəzəbləndirən məhz belə faktlardır. Digər tərəfdən şəhid ailələrinə və qazilərə münasibəti Azərbaycan ilə müqayisə edən ermənilərin dövlətə təzyiqi daha da artırması naəlac və yardımlardan başqa heç bir resursu olmayan hakimiyyəti çıxılmaz vəziyyətə salıb".

Deputat fikirlərinə davam edərək həmçinin qeyd edib ki, mövcud vəziyyətin ən əsas təqsirkarları, cinayətkar Koçaryan-Sarkisyan cütlüyü isə bu vəziyyətdən Paşinyana qarşı maksimum istifadə edir və çürümüş əsgər cəsədləri üzərindən hakimiyyəti yenidən ələ keçirmək istəyirlər: "Bu məsələdə erməni cəmiyyətinin özünün də təqsiri böyükdür. Yaxın tarixdən bəllidir ki, Paşinyan deputat olarkən, hökumətə işğala son qoymağa çağırış etmişdi. Lakin, Koçaryan-Sarkisyan cütlüyünün sifarişini canla-başla yerinə yetirən erməni cəmiyyəti isə o zaman onu linç etdi. Daha sonra, Paşinyan özü də eyforiyaya qapılsa da, müharibə ərəfəsi yenə də reallığı anlayıb baş nazir kimi parlament qarşısında müharibə ilə bağlı dinləmə keçirdi. Təbii ki, xarici yardımlardan asılı qalan Ermənistanın çoxşaxəli və planlı inkişaf yolu keçən, gündən-günə güclənən müstəqil Azərbaycan qarşısında davam gətirəcəyi ağlabatan deyildi. Lakin, bununla belə təcavüzkar ruhda, Azərbaycan və türk düşmənçiliyinə az qala din səviyyəsinə çatdıran erməni cəmiyyəti bu reallığı görmək istəmədi. Əlbəttə bu işdə "məğlubedilməz erməni ordusu" mifinin də rolu az olmadı. Amma miflər xalqın taleyini həll etmir. Beləliklə, əminliklə demək olar ki, bu gün baş verənlərə görə hakimiyyət qədər erməni cəmiyyəti də məsuliyyət daşıyır".



## "Baş verənlərə görə hakimiyyət qədər erməni cəmiyyəti də məsuliyyət daşıyır"

***Arzu Qurbanzadə***

# Əbədiyaşar dahi lider!

## Ümummilli Lider Heydər Əliyevin anım günü ilə bağlı silsilə tədbirlər keçirilib

### YAP Qazax rayon təşkilatının fəalları Heydər Əliyevin abidəsini ziyarət ediblər

YAP Qazax rayon təşkilatının fəalları Ümummilli Lider Heydər Əliyevin anım günü ilə bağlı dahi şəxsiyyətin adını daşıyan parka gələrək abidəsi önünə gül dəstələri düzmüşlər. Daha sonra partiya fəalları Dahi Şəxsiyyətin əziz xatirəsini böyük ehtiramla yad etmiş, fenomenal





şəxsiyyətə həsr edilmiş kitab sərgisi ilə tanış olmuş, videoçarxa baxmış və dahi şəxsiyyətin Azərbaycan xalqı üçün gördüyü əvəzsiz işlərdən danışmışlar.

Allah rəhmət eləsin.

***Rəfiqə***

## Ümummilli lider Heydər Əliyevin anım gününə həsr edilən konfrans keçirilib





**Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının inzibati binasında Ümummilli lider Heydər Əliyevin anım günü ilə əlaqədar olaraq "Heydər Əliyev - hüquqi və demokratik dövlət quruculuğunun banisidir" mövzusunda konfrans keçirilib. SİA xəbər verir ki, konfransı giriş sözü ilə Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri Fatma Səttarova açıb, Ümummilli lider Heydər Əliyevin əziz xatirəsi 1 dəqiqəlik sükutla yad edilib. Daha sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.**

Konfransda çıxış edən Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, polkovnik Cəlil Xəlilov Ulu öndərin Azərbaycanın dövlətçilik tarixindəki roluna diqqət çəkib. Polkovnik qeyd edib ki, məhz Heydər Əliyevin səyi nəticəsində Azərbaycan bir dövlət kimi parçalanmadan xilas olub, öz müstəqilliyini möhkəmləndirib, bütün parametrlər üzrə sürətli inkişaf dövrünə qədəm qoyub. Sədr müavininin çıxışından sonra Ulu öndərə həsr edilən "Mən fəxr edirəm ki, Azərbaycanlıyam" filmi nümayiş olunub.

Daha sonra Azərbaycan Respublikası "Polisə dəstək" İctimai Birliyinin sədri, Qarabağ müharibəsi veteranı Şəmsəddin Əliyev, akademik Ziyad Səmədzadə, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru Abduləli Abdullayev, istefada olan general-mayor Vladimir Vasilyeviç Timoşenko, fəlsəfə elmləri doktoru, əmək və I Qarabağ müharibəsi veteranı İmran Əbilov, şöbə müdiri general-mayor Rasim Əliyev, şöbə müdiri Bəhram Zahidov çıxış edərək Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı əvəzssiz xidmətlərinə toxunublar.

Tədbirdə "Polisə dəstək" İctimai Birliyinin sədri, Qarabağ müharibəsi veteranı Şəmsəddin Əliyevin ideya müəllifliyi və təşkilatçılığı ilə çap edilən "Heydər Əliyev və Azərbaycanın hüquq-mühafizə orqanları" kitabı da konfrans iştiakçılarına təqdim olunub. Kitabda 1969-2019-cu illərdə hüquq-mühafizə orqanlarındakı islahatlar öz əksini tapıb. Tədbirin sonunda xatirə şəkli çəkilib.

***Aysel Məmmədova***

## YAP Qax rayon təşkilatının yığıncağı keçirilib

YAP Qax rayon təşkilatının "Səhiyyə" ərazi ilk partiya təşkilatının yığıncağı keçirilib. Yığıncağı giriş sözü ilə açan YAP Qax rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Natiq Allahverdiyev çıxış edərək, bildirib ki, Yeni Azərbaycan Partiyası tariximizin son dərəcə ağır və keşməkeşli günlərində, ölkənin ciddi sınaqlara məruz qaldığı bir dövrdə Ümummilli Liderimiz Heydər Əliyevin rəhbərliyi ilə yaradılıb. N.Allahverdiyev 29 illik şərəfli yol keçən Yeni Azərbaycan Partiyasının milli dövlətçiliyə və xalqa misilsiz xidmətlər göstərdiyini vurğulayıb. Bu gün ölkə Prezidenti, Cənab İlham Əliyevin Sədri olduğu Yeni Azərbaycan Partiyasının Cənubi Qafqazın ən güclü siyasi təşkilatı kimi cəmiyyətdə böyük nufuza malik olduğunu bildirib. Ulu Öndərin ideyalarına dərin sədaqət ruhunda fəaliyyət göstərən YAP-ın ölkəmizin dinamik və hərtərəfli inkişafı proseslərində daim ön sırada olaraq fəal iştirak etdiyini diqqətə çatdırıb.





"Səhiyyə" ərazi ilk partiya təşkilatının sədri, həkim-stomatoloq Əfqan Babayev çıxış edərək, ərazi ilk partiya təşkilatının fəaliyyəti və qarşıda duran vəzifələr haqqında məlumat verib. Qeyd olunub ki, təşkilatın üzvləri rayonda keçirilən bütün tədbirlərdə, ictimai-siyasi proseslərdə yaxından və fəal şəkildə iştirak edirlər.

Yığıncaqda çıxış edən rayon Mərkəzi Xəstəxanası Publik Hüquqi Şəxsin direktor müavini Vahid Məhsimov qeyd edib ki, Yeni Azərbaycan Partiyası zəngin və şərəfli inkişaf yolu keçmişdir: "Bu gün Heydər Əliyev siyasətinə sadiq qalan Cənab Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasəti nəticəsində ölkəmizin tarixinin ən böyük nailiyyətlərini əldə edib, möhtəşəm nəticələrə imza atıb. Biz partiya üzvləri də Azərbaycanın gələcəyi naminə daim öz Prezidentimizin yanında olaraq, qalib ölkənin Liderinin siyasətini dəstəkləyəcəyik".

Sonda partiyaya yeni qəbul olunmuş bir qrup gənc tibb işçisinə üzvlük vəsiqələri təqdim olunub.

***ZÜMRÜD BAYRAMOVA***

## Koronavirus xəstəsi olan ananın dünyaya gətirdiyi uşaq virusa yoluxa bilərmi



Koronavirus pandemiyası ilə bağlı hamilə qadınlara infeksiyadan qorunmaq xüsusilə vacibdir. Bəs, virus hamilə qadından körpəyə keçə bilərmi? Bununla bağlı "İki sahil"ə açıqlama verən infeksionist-hepatoloq Mərdan Əliyev bildirib ki, koronavirus digər kəskin respirator viruslar kimi, əsasən, yuxarı və aşağı tənəffüs yollarını zədələyir.

"İnsanlar koronavirusa tənəffüs yolu ilə yoluxduğuna görə virusun hamilə anadan uşağa yoluxma ehtimalı demək olar ki, yoxdur. Azərbaycanda hamilə qadınlarda koronovirusa yoluxma halı qeydə alınıb. Lakin anadan dölə yoluxma hallarına rast gəlinməyib. Bu praktikaya əsasən, koronaviruslu hamilə anadan dölə yoluxma ehtimalı yoxdur", - deyə o bildirib. Qeyd edək ki, Bakıda koronavirusa yoluxaraq vəziyyəti kəskin ağırlaşan hamilə qadın və 28 həftəlik doğulan körpəsi uzun mübarizədən sonra həyata qayıdıb.

Kliniki Tibbi Mərkəzin Mətbuat xidmətinin rəhbəri Elnur Hidayət oğlu deyib ki, bBir ay əvvəl səhhətində kəskin ağırlaşma səbəbindən müxtəlif xəstəxanalara müraciət edilən və hətta özəl xəstəxanaların birində böyük məbləğdə depozit istənilən, ancaq COVID testi müsbət çıxdığına görə imtina verilən ana son anda Kliniki Tibbi Mərkəzə yerləşdirilib.

"Gətirilərkən kritik ağır vəziyyətdə olan ana və övladdan yalnız birinin sağ qalma ehtimalı olub. Həmin dövrdə ağır koronavirus keçirən, şok vəziyyətində olan ana süni nəfəs aparatına qoşulub və erkən doğuşa qərar verilib. Olduqca riskli əməliyyat nəticəsində 28 həftəlik qız övladı doğulsa da, körpənin vəziyyəti kritik ağır olub və ağciyərləri açılmayıb. Həkimlər bir müddət körpənin ağciyərlərinin açılmasına çalışıb. Körpə 3 gün ağciyərin süni ventilyasiya aparatında saxlanıldıqdan sonra müsbət dinamika müşahidə edilib və CPAP aparatına qoşulub. 8 gün müddətində bu aparatda qalan körpənin vəziyyəti təxminən 2 həftədən sonra normallaşıb və nazal oksigen terapiyasına keçilib. Hazırda vəziyyəti yaxşıdır, çəkisi bərpa olunur və ana südü ilə qidalanır", - deyə E.Hidayətoğlu bildirib.

ANALİTİK + AKTUAL

# Ermənistanın son tranzit ümidləri necə puç oldu




Bakı, Tbilisi və Tehran Fars körfəzi vasitəsilə İran üzərindən Ermənistana, oradan Qara dənizə, ardınca isə Avropaya daşınacaq yüklərin tranzit məsələsində yağlı nöqtə qoyublar

Ermənistanın "Şimal-Cənub" tranziti ilə bağlı arzuları İranın son qərarı ilə puç oldu. Artıq məlumatlara görə, Bakı, Tbilisi və Tehran Fars körfəzi vasitəsilə İran üzərindən Ermənistana, oradan Qara dənizə, ardınca isə Avropaya daşınacaq yüklərin tranzit məsələsində yağlı nöqtə qoyublar. SİA-nın məlumatına görə, İran İslam Respublikasının Beynəlxalq tranzit və daşınma idarəsinin baş direktoru Cavad Hedayati də sözügedən məlumatı təsdiq edib. Beləliklə, Azərbaycanla Gürcüstan arasında keçirilmiş iki görüşdən sonra təşəbbüs olaraq təklif edilib ki, regional yaxınlaşma üçün yeni tranzit dəhlizi yaradılsın. Nəticədə yeni marşrutun yaradılması Fars körfəzi ilə Qara dənizi birləşdirəcək.

## 580 kilometrlik İrəvan-Mehri-Təbriz avtomobil yolunun yalnız 31 kilometri "Asiya inkişaf Bankı" tərəfindən verilən kredit hesabına salınıb, yerdə qalan vəsait isə buxarlanıb

Bu məsələdə isə Ermənistan növbəti şansını itirdi və yenidən, özü də daha ağır iqtisadi məğlubiyyətə uğradı. Ermənistan düşdüyü çıxılmaz vəziyyətində xəyallara dalmışdı ki, regiondakı proseslərdən istifadə edərək tranzit ölkəyə çevriləcək və Hindistan, Çin, Vyetnam, Tailand, Yaponiya kimi ölkələr öz yüklərini, məhsullarını onun üzərindən tranzit kimi istifadə edəcəklər. Lakin

Lakin İrəvanın uğursuz siyasətinin və qeyri-uzaqgörənliyinin daha bir faktı budur ki, həmin ölkələr Ermənistanda ən pis yolların, keçilməz dağ relyeflərinin olduğunu əvvəlcədən müəyyən ediblər. Üstəlik, 580 kilometrlik İrəvan-Mehri-Təbriz avtomobil yolunun yalnız 31 kilometri "Asiya inkişaf Bankı" tərəfindən verilən kredit hesabına salınıb, yerdə qalan vəsaitin isə haraya buxarlanması barədə kimsə məlumatlı deyil.

## Heç bir "ağıllı" Ermənistana 3,5 milyard dollar həcmində borc verməz!

Beləliklə, "Şimal-Cənub" layihəsinin tamamlanması üçün Ermənistana 3,5 milyard dollar (!) lazımdır, amma müharibədən ağır məğlubiyyətlə çıxmış, sosial vəziyyəti sürətlə pisləşən, iqtisadiyyatı isə müstəqil olmayan və dibə doğru çökən bir ölkəyə hansı "ağıllının" borc verəcəyini isə ehtimal belə etmək çox gülünc səslənir. Artıq ölkədən əlini üzmüş erməni doasporu isə 44 günlük müharibə vaxtı İrəvana göndərilən vəsaitlərin hesabatını tələb edir və bundan sonra ümumiyyətlə, Ermənistan üçün bu qədər vəsaiti toplamaq marağında və gücündə də deyil.

Bu məsələdə Bakının rolu və gücünü xüsusilə vurğulamaq olar. Təkcə bir fakta nəzər yetirək: Bakı İrəvanı beynəlxalq layihələrə daxil olmasını bloklayır, nəticədə bu ölkənin 1,5 milyon insanının Rusiyaya, Avropaya mühacirət etməsi psoesini sürətləndirir. Artıq Ermənistanın son ümid çırpınışlarıdır və ümidləri puç olub. Hətta ermənilərin vaxtilə Cənubi Qafqaza axın etdiyi və kökləri qaynaqlanan Hindistanla bağlı logistik əlaqələri də utopiyaya çevrilməkdədir.

## Nə Dehli, nə Pekin, nə Hanoy, nə Banqkonq, nə də Tokio...

Təbii ki, Bakı, Tbilisi və Tehran arasında haqqında bəhs edilən ilkin razılaşmalardan sonra nə Dehli, nə Pekin, nə Hanoy, nə Banqkonq, nə də Tokio əsla Ermənistanın öz konteynerlərinin nəqliyyat dalanına daxil olmasını istəməz.

Bəs bütün bunların kökündə dayanan əsas, köklü səbəb nədən ibarətdir? Bu sualın cavabı bəsit və sadədir: Ermənistanın qonşu ölkələrə qarşı ərazi iddiaları və aqressiv siyasəti onun nəinki iqtisadi imkanlarını sıfıra endirib, eləcə də müstəqilliyini, suverenliyini böyük təhlükə altında qoyub. O da əbəs deyil ki, erməni ictimai rəyində və siyasi çevrələrində yeganə xilas yolu olaraq erməni muxtariyyəti hüquqları saxlanılmaqla Rusiyanın tərkibinə daxil olmaq variantı müzakirə edilməkdədir. Görünür, heç də bütün xalqlar dövlətçilik və müstəqillik şanslarını haqq etmirlər. Zamanında Uca Yaradan ermənilərə ilk dəfə öz dövlətlərini əldə etmək şansını vermişdi və bu gün onların həmin şansdan istifadə edərək hansı vəziyyətə düşdüklərini isə bütün dünya görür və şahidi olur...

**Rövşən RƏSULOV**






# "Mina xəritələrini təhvil verməsi üçün Ermənistana təzyiq gücləndirilməlidir"

**"Nə qədər ki, Ermənistan mina xəritələrinin tam və dürüst şəkildə Azərbaycana təhvil verməyib, bu məsələ həll olunmuş sayıla bilməz. Bu həm də o deməkdir ki, Ermənistanın Azərbaycana qarşı düşmən niyyəti və təcavüzü hələ də davam etməkdədir. Minalanmış ərazilərin xəritələr dəqiq şəkildə əldə olunmazsa, həmin əraziləri tam olaraq təmizləmək və insanların həyatını potensial ölüm təhlükəsindən xilas etmək mümkün deyil". Bu fikirləri SİA-ya açıqlamasında "Bakı Xəbər" qəzetinin Baş redaktoru, siyasi şərhçi Aydın Quliyev deyib.**

Ekspertin sözlərinə görə, biz artıq neçənci dəfədir ki, Ermənistanın bizə verdiyi mina xəritələrinin qeyri-dəqiq və saxta olduğunun şahidi oluruq: "İlk dəfə Gürcüstan və ABŞ-ın vasitəçiliyi ilə Ağdama aid olan mina xəritələrini təhvil versələr də, təxminən 97 min minanın olduğu deyilən xəritənin sonda saxta olduğu üzə çıxdı. Məlum oldu ki, bu xəritə heç də minaların yerlərini əks etdirmir və cəmi 25 faiz dəqiqliyə malikdir. Daha sonra ermənilər Rusiyanın vasitəsilə daha bir minalanmış ərazi xəritələri verdilər və üçüncü dəfə isə bu günlərdə BMT-nin tövsiyəsi ilə guya mina xəritələrini Azərbaycana təhvil verildi. Lakin bəlli oldu ki, bu xəritələr də saxtadır. Bütün bunlar göstərir ki, Ermənistan mina xəritələrini vermək taktikası ilə nəyinki öz təcavüzkarlığını davam etdirir, eyni zamanda dünya ictimaiyyətini aldadır. Məsələ burasındadır ki, ilk əvvəldən Ermənistana mina xəritələri ilə bağlı oyun oynamaq və bu mina xəritələrinin Azərbaycana təhvil verilməsini hansısa bir mübadilə predmetinə çevirməsinə imkan vermək lazım deyildi. Ermənistan açıq-aşkar bu məsələ üzərində oyun oynadı. Hər dəfə mina xəritələri adı ilə saxta sənədləri Azərbaycana verməklə özünün maraqlı olduğu bir sıra dversantları geri almağa nail oludu. Beləliklə, Ermənistanın daxili siyasətinə hesablanmış müəyyən oyunlar oynadılar və üstəlik Azərbaycanı aldatdılar".

A.Quliyev vurğulayıb ki, mina xəritələrinin verilməsi hər hansı bir mübadilə predmeti deyil və ola bilməzdi: "Beynəlxalq hüququn prinsiplərinə görə hər hansı bir şərt olmadan müharibədən sonra əraziləri minalamış tərəf məcburi şəkildə həmin xəritələri qarşı tərəfə verməlidir. Yəni, Ermənistan heçnəsiz buna məcbur edilməli idi. Dövlətlərin və beynəlxalq təşkilatların vasitəçiliyi nəticə vermədiyi üçün fikrimcə, Rusiya vasitəsilə Ermənistana təziqləri gücləndirmək lazımdır. Çünki Rusiyanın vasitəçiliyi ilə Soçidə baş tutmuş görüşdə qəbul olunmuş bəyanatda ilk dəfə olaraq mina xəritələri bağlı məsələni özündə əks etdirən sənəd qəbul olunub. Artıq, Ermənistan humanitar əməkdaşlıq prinsipləri çərçivəsində mina xəritələrini Azərbaycana təhvil verməklə bağlı öhdəlik götürüb. Məhz, buna görə Rusiyanın əli ilə Ermənistana təziqi gücləndirmək lazımdır".

**Aysel Məmmədova**

## EKSPERT RƏYİ:

# "Ermənistanı sıxışdırmağa davam etməliyik"

"Beynəlxalq Ədalət Məhkəməsi Ermənistanın Azərbaycana qarşı iddiası üzrə qərarını açıqlayıb. Məhkəmə İrəvanın əsas iddiası və məqsədi olan Azərbaycanda saxlanılan erməniəsilli şəxslərin dərhal və qeyd-şərtsiz geri qaytarılmasına dair iddiasını təmin etməyib. Həmçinin, Ermənistanın Hərbi Qənimətlər Parkının bağlanmasına dair iddiası da cavabsız qalıb. Beləliklə, İrəvan beynəlxalq müstəvidə növbəti dəfə ifşa olunub". Bu fikirləri SİA-ya açıqlamasında siyasi şərhçi Kənan Novruzov deyib.

Onun sözlərinə görə, bu, Brüssel görüşü ərəfəsində əlimizi gücləndirən fakt oldu: "Ancaq bundan sonra Ermənistanın havadarlarının, o cümlədən Fransanın mövqeyinin dəyişəcəyini düşünmək doğru deyil. Çünki onlar İrəvanı haqlı olduğuna görə dəstəkləmirlər. Özləri də hər şeyi görür, anlayırlar. Sadəcə Ermənistan bir çox üçün sadəcə "maşa"dır. Beynəlxalq Ədalət Məhkəməsinin əsas qərarlarından biri də Ermənistanda hakimiyyətin radikal qüvvələrlə daha ciddi mübarizə aparması ilə bağlıdır. Bu, hər şeydən əvvəl mövcud iqtidarın kifayət qədər güclü olmadığını, daxildə ikitirəliyin hökm sürdüyünü göstərən məqamdır".



K. Novruzov vurğulayıb ki, əsas məsələ isə başqadır: "Baş nazir Nikol Paşinyan sözügedən öhdəliyi yerinə yetirə biləcəkmi? Özü bilsin. Hər halda radikal qruplaşmaları neytrallaşdırmaq hər kəsdən çox elə Paşinyanın özünə lazımdır. Biz istənilən halda işimizi görəcəyik. Geri çəkilməməli, əksinə, hücum mövqeyində daha qətiyyətli addımlar atmalıyıq. Beynəlxalq hüquqi platformalarda Ermənistanın sıxışdırılması prosesi bundan sonra da davam etməlidir. Məlumdur ki, otuz il ərzində yığılan məsələləri bircə məhkəmə ilə həll etmək mümkün deyil. İkinci bir tərəfdən isə biz hüquqi-siyasi meydanda irəlilədikcə İrəvan həm tədricən təklənəcək, həm də normal, konstruktiv mövqe sərgiləməyə məcbur qalacaq".

# Sarkisin çağırışına Alenin “hörmətsizliyi”...

**”...Bu şəraitdə vətəndaş nə etməlidir, təbii ki, ölkədən qaçmağı fikirləşməlidir. Təəssüf ki, getdikcə daha çox insan bu həlli yeganə çıxış yolu kimi görür”. Bu əsil səmimi erməni etirafıdır, aşağıdakı isə...**

”...Erməni uşaqları, qadınları və qocalarının həyatı mənim üçün öz həyatımdan daha qiymətlidir” deyən ”vətən təəssüfkeşi” Sarkis Tsaturyandan fərqli olaraq, İrəvanın mərkəzində oturub, özündən əlavə qardaşını belə tender qalibi edən parlanent spikeri Alen Simonyanın ”...bu əsirlər artıq mənim üçün heç bir önəm kəsb etmir” deməsini ermənilər hələ ki, həzm edə bilməyiblər.

Hələ bunlar bir yana, onun ”qəhrəman” erməni əsirlərini fərarilik və qorxaqlıqda ittiham etməsi isə ”böyük erməni tarixçi alimi” Sarkis Tsaturyana, onun hələ də öz ”effektivliyini itirməyən humanist çağırışlarına” hörmətsizlik kimi qəbul edilməlidir.

Yəqin yadınızda olar, hələ ötən ilin sentyabrında Moskvada oturub dünya ermənilərini Qarabağda döyüşlərə qatılmağa səsləyən Tsaturyan ermənilərin necə döyüşkən bir xalq olduğunu dünyaya necə tanıtmışdısa, sonradan ermənilər bir-birlərinə ”ehtiyatla” yanaşmağa başlamışdılar.

Amma nə təəssüflər ki, erməniləri ”mütəşəkkil şəkildə” döyüşlərə səfərbər edən Sarkis sonradan şəxsi işinin çıxması səbəbindən özü həmən döyüşlərə qatıla bilmədi. Bundan əlavə, belə görünür ki, onun apardığı təbliğat da



bir kara gəlmədi və əksinə ”qəhrəman erməni ordusu”ndakı fərariliyə rəvac verdi.

Bu gün isə daha az pis olanı seçməyə məcbur olan ermənilər ”seçdiklərinə” bəzi istisnalarla qane olmağa belə razıdırlar.

Amma bunun ”biabırçılıq” olduğunu deyib və buna son qoyulmasını da istəyirlər. Belə ki, onların dediklərindən belə başa düşülür ki, guya bu gün Ermənistandakı siyasi həyat getdikcə orta səviyyəli aktyorun son dərəcə səviyyəsiz bir tamaşa götürməsinə bənzəyir. Belə görünür ki, ermənilər bunula da barışmağa hazırdırlar.

Amma Alen Simonyanın könüllü olaraq, heç olmasa reputasiyaya bənzər bir şeyi qorumaq xatirinə üzrxahlıq etməsini istəyirlər. Simonyanı isə nəinki Sarkis Tsaturyanın ”döyüşkən erməni xalqı” barədə dediklərini təsdiq etmir və hətta açıq şəkildə ermənilərin 50 ildən sonra belə ”qələbə” üzünə həsrət qalacaqlarını bəyan edir.

Təbii ki, ölkə spikerindən belə münasibət görən ermənilər, Cənub Hərbi Dairəsinin komandan müavini Rüstəm Muradovun söylədiyi ”...erməni əsirlərin qaytarılması məsələsi tamamilə bağlanmalıdır” ifadəsində qeyri-adi heç nə görmədiklərini tiraf etmək məcburiyyətində qalırlar.

Məlum məsələdir ki, adətən səviyyəsiz bir tamaşa seyrçiləri çox vaxt teatr binasını tamaşa bitməmişdən əvvəl tərk edirlər. Məhz bu mənada, yox şəraitdə erməni vətəndaş kimi nə etməlidir?

Təbii ki, onlar ölkədən qaçmağı, özü də nə vaxtsa Azərbaycanın ayağa qalxıb torpağını geri alacağını başa düşüb aradan çıxan Sarkis Tsaturyanın sığındığı Rusiyaya üz tutmağı yeganə çıxış yolu kimi görürlər.

***Ağasəf Babayev***



Elçin Bayramlı

# Multterror:
## Uşaqlarımızın psixologiyasını kim və necə pozur?

**İndiki uşaqlar daha çox yeni tipli cizgi filmlərinə baxır ki, bu tip filmlərin də onların psixologiyasında dərin və zərərli iz buraxdığı məlumdur. Uşaqlar belə filmlərə özləri üstünlük vermir, valideynlər onlara bu şəraiti yaradır və həmin multfilmləri özləri qoyurlar uşaqların qarşısına. Bu yaxınlarda təsadüfən gördüyüm bir cizgi filmi bir personajın digərini vəhşicəsinə öldürməsi ilə başlayırdı...**

Bu gün telekanalları zəbt edən qanlı, döyüşlü-davalı multfilmlər uşaq psixologiyasına olduqca böyük zərər verir. Yenicə ətraf aləmlə tanışlığa başlayan uşaq cizgilərdəki münasibəti həyatında da görmək istəyəcək. Çünki uşaqların gördükləri və eşitdikləri hər şey alt şüura həkk olunur və bunların əsasında psixologiyaları müəyyənləşir. Elə böyüklərin də...

Köhnə filmlər tərbiyəvi əhəmiyyətlidir, uşaqlara dostluq, insanlıq, düzgünlük, vicdanlılıq təbliğ edir. Keçən əsrdə çəkilmiş filmlər çox müsbət enerjili, sülhsevər və düşündürücü süjet xəttinə malikdir. Belə multfimləri izləyən uşaqlarda insanlara, heyvanlara, təbiətə qarşı humanist münasibət yaranır.

Müasir multfilmlərin az qala hamısı yalnız zərərli şeyləri təbliğ edir və onları psixotron terror silahı adlandırmaq olar. ABŞ-ın ”Seattle” Uşaq Xəstəxanası Araşdırma İnstitutunun 330 uşaq üzərində reallaşdırdığı araşdırmanın nəticələrinə görə, məktəbəqədər dövrdə şiddət mövzulu müasir cizgi filmlərinə baxan uşaqlar yaşdıllarına görə 3 qat daha aqressiv olur. Rusiyada aparılmış bir tədqiqata görə isə, müasir multfilmlərə baxan uşaqlarda hiylə, pis davranış, itaətsizlik, aqressivlik və vicdan əzabı çəkməmək kimi davranışların sıx müşahidə edildiyi ortaya çıxdı.

21-ci əsrdə çəkilmiş multfilmlərin, xüsusən də Amerika və bəzi Qərb ölkələrinin istehsalı olan filmlərin çoxu subliminal mesajlarla, 25-ci kadrla doludur. Bu isə görünməyən terrorun uşaq beyninə həkk edilməsi deməkdir. Valideynlər diqqətli olmasa şiddət və qorxu məzmunlu filmlər izləyən uşaqlar gələcəyin potensial şiddət və zorakılıq tətbiq edənləri ola bilər.

Bizim telekanallarda da həmişə müasir cizgi filmlərini verirlər. Sanki hansısa qüvvə onlara özümüzün istehsalı olan milli multfilmləri və ya keçən əsrdə müxtəlif ölkələrdə çəkilmiş normal filmləri efirə verməyə qadağa qoyub. Maraqlı burasıdır ki, belə bir qadağa yoxdur, bu kanalların niyə belə etdiyinin səbəblərini tapmaq olmur.

Təkcə ötən əsrin 80-ci illərində kinostudiyada 38 adda cizgi filmi istehsal olunub. ”Cücələrim”, ”Meşəyə insan gəlir”, ”Sehrli ağac”, ”Taya”, ”Dəcəl dovşan”, ”Sandıq”, ”Sən belə cumbulusan”, ”Sehrli ləçək ”, ”Uçan zürafə”, ”Qəribə əjdaha”, ”Təqib”, ”Yatmaq vaxtıdır”, ”Balaca çoban”, ”Humayın yuxusu”, ”Sakit Yonun macəraları”, ”Ana ağaca qonub”, ”Xeyir və Şər”, ”Cırtdan-Pəhləvan”, ”Uşaq və külək”, ”Akvarium”, ”Cırtdan və div”, ”Yeni il əhvalatı”, ”Sehrli naxışlar” və s

İndi azərbaycanlı bir uşağa sual versən, öz multfilmlərimizdən 2-nin adını çəkə bilməz. Amma azı 20 əcnəbi filmin adını çəkə bilər, hətta süjetini sizə əzbər danışar. Bu artıq faciədir.

Bu yöndə telekanalların üzərinə düşən iş o qədər də böyük deyil, sadəcə milli filmlərin fonduna, videotekaya müraciət etmələri kifayətdir. AzTv-nin arxivində də demək olar ki, hamısı var. Üstəlik, ”Soyuzmultilm”in istehsalları və keçmiş SSRİ-nin digər respublikalarında çəkilən multfilmlərin dublyaj olunmuş variantları da. Bircə qalır bunları efirə vermək.

Valideynlərin bəhanəsi isə əsassızdır. İndi internet əsridir. İnternet portallarda minlərlə flim var, onların arasından istənilən qədər əvvəlki dövrdə çəkilmiş sadə multfilmləri tapıb uşağa izlətmək olar. Köhnə multfilmlərin koleksiyasını DVD disklərdə də almaq olar. Sadəcə valideyn buna vaxtını sərf eləmir, pultu verir uşağın əlinə oturdur televizorun qabağında ki, kefi nəyə istəyir baxsın.

Bunun axırı isə yaxşı görünmür. Çünki artıq uşaqlarınızı siz yox, əcnəbi rejissorlar, psixoloqlar tərbiyə edir, onların psixologiyasını siz yox, onlar müəyyən edir. Necə deyərlər, uşağınızın ”əti” sizindir ”sümüyü” (yəni, beyni) onların. Seriala, futbola baxmaqdan, sosial şəbəkədə qeybət eləməkdən vaxtınız qalsa, bir bu barədə də düşünün-əgər əsil valideyn olmaq və sağlam uşaq böyütmək istəyirsinizsə...



# POLİTOLOQ:
## “Erməni təxribatları daxili auditoriyaya ünvanlanmış uğursuz jestlərdir”

**“Erməni tərəfinin münaqişə bölgəsində vəziyyəti gərginləşdirmək istəyi tərəflər arasında bu günlərdə baş tutacaq Brüssel görüşü ərəfəsində regionda eskalasiyanın artmasına görə məsuliyyəti Azərbaycanın üzərinə atmaq, AB-nın vasitəçiliyi ilə baş tutacaq danışıqlarda Rusiyanın nüfuzuna xələl gətirmək istəyindən qaynaqlanır”. Bunu SİA-ya açıqlamasında politoloq Elşən Manafov deyib.**

Onun sözlərinə görə Qərb yönümlü Paşinyan iqtidarı bir tərəfdən Moskva və Soçi razılaşmalarının şərtlərini yerinə yetirməkdən boyun qaçırmaq istəyir, digər tərəfdən Qərbdəki bəlli dairələrə Rusiyanın məlum münaqişə ilə bağlı mövqeyinin Ermənistanın maraqlarına cavab verməməsi faktorunu qabartmaq istəyir: ”Bölgədəki yeni geosiyasi reallıqların Rusiyadan fərqli olaraq Qərbi məmnun etməməsi şəksizdir. Qərb gözəl anlayır ki, bu yeni geosiyasi reallıqlardan Azərbaycanın 44 günlük savaşda əldə etdiyi qələbə, digər tərəfdən isə Rusiya və KTMT-nin məlum hərbi qarşıdurmaya loyal münasibəti sayəsində əldə edilmişdir. Danışıqlarda Rusiyanın moderatorçu mövqeyi, habelə bölgədə nəqliyyat-kommunikasiya xətlərinin açıla biləcəyi ilə bağlı reallıqlar da Qərbi qane etmir, çünki bu razılıqların əldə edilməsində Qərbin və bu gün xüsusilə oyundan kənar vəziyyətdə qalan ATƏT-in Minsk Qrupunun əhəmiyyətli bir rolu olmamışdır. Məhz buna görə də bölgədə nüfuz dairəsi uğrunda mübarizədə hələ ki, Rusiyaya uduzan Qərbə revanş götürmək, münaqişə tərəflər arasında perspektivdə təşəbbüsü ələ almaq üçün özünün Ermənistandakı qüvvələrini təxribata vadar edir, bölgədə gərginliyi artıracağına ümid edərək Azərbaycan-Rusiya, Türkiyə-Rusiya tərəflərini üzbəüz qoymaq, idarəolunan xaos nəzəriyyəsinin mexanizmlərini işlək vəziyyətə gətirməyə çalışır. Məğlubiyyətin Ermənistanda doğurmuş olduğu eyforiya da hər halda Paşinyan iqtidarının xeyrinə deyil, belə ki, erməni müxalifəti, bu ölkənin millətçi dairələri ölkədəki ağır sosial iqtisadi duruma, güclənməkdə olan miqrasiyaya əlbəttə Paşinyan iqtidarının məsuliyyət daşıdığını qeyd edirlər, bu mənada təmas xəttində erməni tərəfinin təxribatları həm də ola bilsin ki, daxili auditoriyaya ünvanlanmış uğursuz jestlərdir, yəni ictimai rəyi erməni iqtidarının lazım bildiyi hədəflərə yönəltmək. Bu da hakimiyyət uğrunda iqtidar və müxalifət arasındakı mübarizədə sınanılmış üsullardan biridir”.

***Gülyana***

# Andrey Kortunov: "Bakının Brüsseldə veto hüququ var, xüsusən də, söhbət Azərbaycanın ərazisindən gedirsə"

"Müharibə vaxtı Fransa və ABŞ münaqişə tərəflərinə bərabər məsafədə mövqe tutmadı. Ona görə də, onlar əsas vasitəçi kimi çıxış edə bilməzlər"



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

Rusiya Beynəlxalq Məsələlər Şurasının baş direktoru Andrey Kortunov "Moskva-Baku" platformasına müsahibəsində Rusiya-Azərbaycan-Ermənistan ekspert qrupunun yaradılması imkanları, Azərbaycanın beynəlxalq aləmdə statusunun yüksəldilməsi və Ermənistanın Qarabağ nizamlanmasının beynəlmiləlləşməsində maraqlı olması barədə danışıb. Müsahibəni oxucularımıza təqdim edirik.

***- Andrey Vadimoviç, yeni yaradılmış Rusiya-Azərbaycan Ekspert Şurasının əsas vəzifəsi nədir?***

- Təəssüf ki, mən şuranın iclasında yalnız videoformatda iştirak etdim, amma nümayəndə heyətimiz bir neçə gün Azərbaycanda oldu. Həmkarlarımdan aldığım rəylərdən də deyə bilərik ki, görüşlər çox maraqlı, zəngin və mənalı keçib. Ona görə də ilk belə tədbiri uğurlu hesab etməyə əsasımız var.

Əgər Rusiya ilə Azərbaycan arasında münasibətlərin tarixinə nəzər salsanız, həm ikitərəfli münasibətlərə dair məsələlər, həm də geniş beynəlxalq gündəm prizmasından Cənubi Qafqaz regionundakı vəziyyətlə bağlı ciddi ekspert dialoquna başlamaq üçün bir neçə dəfə cəhdlər edilib. Təəssüf ki, bu cəhdlər çox da effektli alınmayıb. Bu proses tez-tez xalq diplomatiyası, vətəndaş cəmiyyəti liderləri və ikitərəfli münasibətlərin inkişafı həvəskarları arasında qarşılıqlı əlaqə istiqamətində inkişaf edib. Bəzi hallarda bu, dövlət strukturları ilə məmurlar arasında rəsmi təmasların üstün predmetinə çevrildi. İndi bizə elə gəlir ki, Rusiya-Azərbaycan ekspert şurasının yaradılması ilə təcəssüm olunan bu yeni cəhdin gələcək üçün yaxşı perspektivləri var.

Ötən ilin payızında Azərbaycan və Ermənistan arasında baş vermiş müharibədən sonra regionda vəziyyət dəyişib. İndi ortaya çıxan problemlərə və çağırışlara başqa yanaşmalar tələb olunur və münaqişə illərində yığılmış dağıntılar təmizlənməlidir. Və təbii ki, biz birbaşa bölgə ilə həmsərhəd olan ölkələrin oyunçularının iştirakı ilə çoxtərəfli formatların mümkünlüyü barədə düşünürük.

***- Bu, Rusiya-Azərbaycan-Ermənistan ekspert qrupuna çevrilə bilərmi?***

- Nəzəri olaraq, bəli, amma təxmin etdiyiniz kimi, hətta bir çox ekspert suallarının çox siyasiləşdiyini nəzərə alsaq, indi Ermənistanda tərəfdaş tapmaq bizim üçün çətindir. Bu, yəqin ki, indiki vəziyyətdə başa düşüləndir. Amma biz bu sahədə də işləyəcəyik və istərdik ki, bəzi məsələlərlə bağlı, ən azı bütövlükdə regionun inkişafı, nəqliyyat və logistika infrastrukturu, ola bilsin ki, yeni enerji məsələləri ilə bağlı bizim üçtərəfli tədbirlər keçirmək imkanımız olsun.

***- Yəni ekspertlərin işi münaqişədən sonrakı dövrdə diplomatiyanın fəaliyyətinə paralel istiqamətdir? O cümlədən, cəmiyyətlərin yaxınlaşmasına diqqət ...***

- O cümlədən, münaqişədən sonrakı dövrdə ekspertlərin işində belə bir məqam var- biz başa düşürük ki, bir sıra sahələr dövlət səviyyəsində müzakirə olunur və təbliğ olunur və burada bizim üçün yəqin ki, onlarla məşğul olan səlahiyyətli orqanlarla rəqabət aparmaq çətindir. Amma elə məsələlər var ki, məmurlar müəyyən səbəblərdən onlara toxunmur. Bizim vəzifəmiz isə ekspertlər səviyyəsində işin ən faydalı ola biləcəyi əməkdaşlıq sahələrini müəyyən etməkdir.

Ümumiyyətlə, Rusiya-Azərbaycan münasibətlərinə gəlincə, Rusiya və Azərbaycan liderləri arasında qarşılıqlı etimad, maraqları və prioritetləri dərk edən münasibətlərin inkişaf etdirilməsi çox böyükdür. Ancaq eyni zamanda, biz, vətəndaş cəmiyyətinin qarşılıqlı əlaqəsi səviyyəsində müəyyən çatışmazlıq, (o cümlədən ekspert icmaları səviyyəsində) müşahidə edirik. Və ən yüksək səviyyədə mövcud olan konstruktiv münasibətləri bütün digər səviyyələrdə bütöv əlaqələr piramidası ilə tamamlamaq çox vacibdir. Biz bu problemin həllinə öz təvazökar töhfəmizi verməyə çalışırıq.

Bu gün Azərbaycanın beynəlxalq aləmdə, nəinki Cənubi Qafqaz regionunda, Avrasiya regionunda, hətta qlobal kontekstdə rolunun fəallaşmasından danışmaq olar. Bu təbiidir. Region çox çətindir. Burada təkcə imkanlar deyil, həm də çətinliklər var. Hazırda bütün dünya qeyri-sabitlik, qeyrisabitlik dövrünə qədəm qoyduğundan, strateji liderliyin və sabit, ardıcıl xarici siyasətin dəyəri artır. Bu baxımdan, Azərbaycan Rusiya üçün qeyri-sabit, dəyişkən münasibətlərin ümumi dünyasında sabitlik adalarından biridir.

***- Ötən ilin payızında Rusiyanın Qarabağ münaqişəsinin həllində vasitəçi kimi oynadığı rolla bağlı mövqeyiniz nədir?***

- Rusiyanın strategiyası kifayət qədər aydındır. Bu gün Moskva təbii ki, öz vasitəçiliyi ilə imzalanmış üçtərəfli sazişin həyata keçirilməsinin tərəfdarıdır. Və bu müqavilə çərçivəsində müəyyən müddəaları dəqiqləşdirmək mümkündür. Biz sərhədin delimitasiyası və demarkasiyası ilə bağlı məsələləri həll etməliyik, regiona nəfəs verməli olan nəqliyyat arteriyalarını blokdan çıxarmalıyıq. Rusiya ikitərəfli və çoxtərəfli iqtisadi layihələrin başlanmasının tərəfdarıdır. Ancaq həmişə olduğu kimi, şeytan təfərrüatlarda gizlənir. Rusiya isə heç bir tərəflə münasibətləri korlamamaq, birtərəfli mövqe tutması təəssüratı yaratmamaq üçün böyük yaradıcılıq nümayiş etdirməlidir. Bu asan deyil və müəyyən bacarıq və çeviklik tələb edir. Ancaq Rusiya bunun öhdəsindən gəlir.

***- Çoxları bu gün deyirlər ki, Qərb nizamlanma prosesinə fəal şəkildə qarışmağa çalışır. Ötən ilin payızında Rusiya, Azərbaycan və Ermənistan liderlərinin imzaladığı bəyanatdan dərhal sonra Sergey Lavrov qeyd edib ki, Qərb Rusiyaya məsələnin onsuz həll olunduğuna dair iddialar irəli sürüb. Dekabrın 15-də Brüsseldə Azərbaycan və Ermənistan liderlərinin görüşü keçiriləcək. Bu, nə dərəcədə Moskvanın əsas vasitəçi rolunu inkar etmək cəhdi kimi şərh edilə bilər?***

- Hesab edirəm ki, heç kim Rusiyadan əsas vasitəçi statusunu ala bilməz. Bu, bir çox səbəblərə görə çətin olacaq, o cümlədən siyasi və sırf texniki. Bildiyiniz kimi, hələ də problemlə məşğul olan ATƏT-in Minsk qrupu var. Onun 3 həmsədri var. Rusiyadan başqa bunlar Fransa və ABŞ-dır. Avropa İttifaqı və ABŞ-ın nizamlanmada iştirak etmək istəyi başa düşüləndir. Mənə elə gəlir ki, burada sual bu iştirakın necə ifadə ediləcəyi və həmçinin münaqişə tərəflərinin bu iştirakla nə dərəcədə razılaşacağıdır, çünki demək olmaz ki, ötən ilin payızında Azərbaycan və Ermənistan arasında müharibə zamanı Fransa, ABŞ münaqişə tərəflərinə bərabər məsafədə mövqe tutdu. Ona görə də, onlar əsas vasitəçi kimi çıxış edə bilməzlər. Biz gördük ki, Qərbin mövqeləri Azərbaycandan çox Ermənistana yaxındır. Ermənistana qərəzli münasibət ABŞ-ın və xüsusən də Fransanın siyasi həyatında kifayət qədər mühüm rol oynayan güclü, nüfuzlu erməni diasporlarının olması ilə əlaqələndirilir. Müharibə zamanı Makronun münaqişə ilə bağlı bəyanatları, digər məsələlərlə yanaşı, onun erməni köklü seçicilərin dəstəyini qazanmaq istəyini də əks etdirirdi. Burada hər şey az-çox aydındır. Ona görə də Minsk qrupunun Bakıda işini bərpa etmək cəhdlərinin şübhə doğurması təəccüblü deyil. Söhbət ondan gedir ki, Minsk Qrupu prosesə nə gətirə bilər- onlar gedən prosesə hansı imkanlar, hansı resurslar, nə əlavə edə bilərlər. Yəqin ki, bundan çıxış edərək, tərəflər qərar verməlidirlər ki, üçüncü ölkələrin iştirakına nə dərəcədə ehtiyac var.

***- Brüsseldə Rusiyanın vasitəçiliyi ilə əldə edilmiş razılaşmalara yenidən baxılması cəhdi mümkündürmü?***

- Nizamlanma prosesinin beynəlmiləlləşdirilməsi Ermənistan rəhbərliyinin hazırkı strategiyasına uyğundur. Təbii ki, onlar bir növ regiona yeni oyunçular cəlb etmək istərdilər. Amma başa düşürük ki, belə hallarda yenə də hər iki tərəfin razılığı lazımdır. Buna görə də, hər halda, Bakının veto hüququ var, xüsusən ona görə ki, söhbət Azərbaycanın tərkib hissəsi olan ərazidən gedir.

***- İl ərzində Amerika və Fransa tərəfləri Qarabağın statusu məsələsini çox fəal şəkildə irəli sürdülər. Məlumdur ki, Rusiya bu yanaşmadan məmnun deyil, Moskva dəfələrlə bildirib ki, bu məsələ hələ də aktualdırsa belə, buna ən axırda baxılmalıdır.***

- Bu, doğrudur. Paşinyan bildirib ki, Qarabağ məsələsi siyasi məsələdən çox ərazi məsələsidir. Və Ermənistanda öz müqəddəratını təyinetmə ideyası tam ölməyib, yaşayır. Və çox güman ki, bu və ya digər şəkildə irəliləməkdə davam edəcək. Mənə elə gəlir ki, indi Ermənistanda hər bir siyasətçi deyir ki, hər şey, məsələ tamamilə bağlanıb, ona görə də Ermənistanın baş naziri həqiqətən də bu məsələdə qeyri-müəyyənliyi saxlamağa məcburdur.

***- Biz görürük ki, Rusiya və Amerika tərəfləri arasında danışıqların yekunlarına dair rəsmi məlumatlarda onların Cənubi Qafqazdakı vəziyyəti müzakirə etdikləri vaxtaşırı qeyd olunur. Aydındır ki, hər iki ölkə Minsk Qrupunun həmsədrləridir və indiki şəraitdə bu mövzunun qeyd olunması normaldır. Bəs bu gün Ermənistan-Azərbaycan nizamlanmasının ABŞ üçün əhəmiyyəti nədir?***

- Mənə elə gəlir ki, ABŞ üçün bu məsələ ilk növbədə İran mövzusu ilə bağlıdır. ABŞ üçün,- həm Bayden, həm də Tramp dövründə regionda əsas rəqib İrandır və onlar öz siyasətlərini hərəkətlərinin güc balansına necə təsir edə biləcəyi və İslam Respublikası üçün necə manevrlər yarada biləcəyi ətrafında formalaşdıracaqlar. Düşünürəm ki, Amerikanın Cənubi Qafqazdakı roluna məhz bu mövqelərdən baxmaq lazımdır.

***- Minsk qrupunun fəaliyyəti. Bakının mövqeyi tamamilə aydındır. Və Moskva, şəxsən Putin deyir ki, Minsk Qrupu işləməyə davam etməlidir, lakin Moskvanın məntiqinə görə, onun münaqişədən sonrakı fəaliyyəti daha çox tərəflərin yaxınlaşmasını nəzərdə tutmalıdır...***

- Görünür, əvvəllər Minsk qrupunun həmsədrləri başqa reallıqlarda işləyirdilər, indi isə vəziyyət dəyişib. Hesab edirəm ki, Minsk qrupunun tərkibinə yenidən baxıla bilərdi, çünki prinsipcə, onun tərkibində çoxlu üzvlər var. Mənə elə gəlir ki, konkret problemlərin həllində formal strukturların mövcudluğundan çıxış etmək olmaz, ilk növbədə mövcud problemin özündən çıxış etmək və onun həllinə həqiqətən töhfə verə biləcək iştirakçıları cəlb etmək lazımdır.

***Tərcümə - Elçin Bayramlı***

# "Barselona"

## rəzil oldu: Avropa Liqasında oynayacaq…

**"Barselona"nın UEFA Çempionlar Liqasındakı 17 illik seriyası başa çatıb. SİA xəbər verir ki, 2004/05 mövsümündən başlayaraq hər il qrupdan çıxmağı bacaran İspaniya nəhəngi bu dəfə 3-cü yerin sahibi kimi Avropa Liqasına yollanıb. Barselonanın eyniadlı təmsilçisinin seriyası Lionel Messinin komandadakı ilk mövsümündə başlayıb. Uğurlu seriya argentinalının komandadan getdiyi ilk mövsümdə qırılıb.**



Kataloniya təmsilçisinin Çempionlar Liqasının pley-offundan kənarda qalması sonuncu dəfə 2003/04 mövsümündə qeydə alınıb. Həmin il komanda ümumiyyətlə bu turnirin qrupuna da düşməyib. Barselonalılar həmin vaxt olduğu kimi 17 ildən sonra Avropa Liqasında (o vaxt UEFA kuboku adlanırdı) oynayacaq.

Bu göstəricidə rekord "Real"a məxsusdur. Madrid klubu ardıcıl 25 dəfə qrupdan pley-offa yüksəlib. Barselonalıların qrupda oynayıb, mərhələ keçməməsi isə 21 ildə ilk dəfə yaşanıb. 2000/01 mövsümündə "Milan" və "Lids"dən sonra qrup üçüncüsü olan komanda UEFA kubokuna yuvarlanıb. Orada yarımfinala qədər irəliləyən ispaniyalılar sonda turnirin qalibi olan "Liverpul"a uduzub - 0:0, 0:1.

Qeyd edək ki, "Barselona" qrup mərhələsinin son turunda "Bavariya"ya 0:3 hesabı ilə məğlub olduqdan sonra 3-cü yeri tutub.

# Britaniyalı həkim koronavirusdan qoruyan qidaları açıqladı

**Britaniyalı həkim Gida Meykerin fikrincə, mikroelementlərin müəyyən dəsti ilə birgə fəaliyyət göstərən qida məhsulları orqanizmi koronavirusa qarşı zəruri maddələrlə təmin edə bilər.**



Belə ki, Gida Meyker qida məhsullarının tərkibindəki koronavirusdan qoruyan zəruri maddələr barədə "Daily Express" nəşriyyatına məlumat verib. "İmmun sistemi: A, C, D, E, B6 və B 12, folatlar, sink, dəmir, mis və selen vitamin və minerallar kompleksini tələb edir", - deyə ekspert əsas nutrientləri açıqlayıb.

İngilis həkim C vitamini ilə zəngin olan brokoli, şirin bibər, brüssel kələmi və sitrus meyvələrindən istifadə etməyi məsləhət görüb. Mütəxəssis yaşıl yarpaqlı tərəvəzləri, yerkökü, balqabaq və şirin kartofu orqanizmi A vitamini ilə, qoz-fındıq, ispanaq, təmizlənməmiş günəbaxan yağını isə E vitamini ilə təmin etdiyini bildirir.

D vitamininin qəbulundan danışan həkim bildirib ki, qışda günəş işığının çatışmadığı şəraitdə tərkibində həmin vitaminin olduğu qidaların orqanizmi təmin edə bilmədiyinə görə əlavələr edilməlidir. Həkim həmin məhsullardan mart ayı başlayanadək istifadə etməyi tövsiyə edir.

# «SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR



1 .Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Kaspi Mətbuat Yayım – 0125106196, 0502685868
9. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

## Məşhur professor:
# Beton ağacları əkməyin, zeytun ağacları əkin!



Daxili Xəstəliklər üzrə mütəxəssisi, məşhur professor Canan Karatay zeytun və zeytun ağacı haqqında mühüm açıqlamar verib. Türkiyənin nüfuzlu "Milliyet" nəşrinin yazdığına görə, Canan Karatay zeytun yağının insan sağlamlığı üçün çox faydalı məhsul olduğunu bildirib:

"Sağlamlığımızı qorumaq məcburiyyətindəyik. Bütün qurumları heç bir fərq qoymadan, zeytunu və kənd təsərrüfatını dəstəkləməyə çağırıram. Bina tikməyin, beton ağacları əkməyin, zeytun ağacları əkin.

Hamımızın, uşaqlarımızın və nəvələrimizin gələcəyi zeytun və zeytun yağından asılıdır. Bütün dünya buna investisiya qoyur. Avtomobil investisiya əhəmiyyətli deyil. Yolların təmiri önəmli deyil. 9 mərtəbəli binaların, 50 mərtəbəli ticarət mərkəzlərinin tikilməsi önəmli deyil. Bu, mədəniyyət deyil. Mədəniyyət əkinçinin və kənd təsərrüfatının dəstəklənməsidir. Bir ölkə ancaq kənd təsərrüfatını yaşadarsa, ayaqda qalar. Əkinçi və kənd təsərrüfatını dəstəkləmək məcburiyyətindəyik. O zaman heç kim bizi əzə və bölə bilməz".

Zeytun yağının dünyanın ən əhəmiyyətli antioksidantı olduğunu vurğulayan Karatay sözlərini belə tamamlayıb:

"Hippokrat Miladdan əvvəl beşinci əsrdə zeytun yağıyla mədə yarası və vəba kimi xəstəlikləri müalicə edib. Soyuq sızma zeytun yağı bağırsaqlardakı problemləri aradan qaldırır. Yaşlılarda bağırsaqların fəaliyyəti pozularsa, beyin də öz funksiyasını itirməyə başlayacaq. Çünki bağırsaqlar ikinci beyindir".



# 22 yaşlı gənc özünü dənizə atıb

Bakıda 22 yaşlı gənc intihara cəhd edib. SİA-nın məlumatına görə, hadisə Dənizkənarı Milli Parkın ərazisində olub. 1999-cu il təvəllüdlü Alıyev Vaqif Şəhriyar oğlu bu gün saat 11:00 radələrində bulvarda özünü dənizə atıb. Dərhal hadisə yerinə xilasedicilər cəlb olunub. V. Alıyev xilas edilərək Kliniki Tibbi Mərkəzə yerldirilib. Kliniki Tibbi Mərkəzin Mətbuat xidmətinin rəhbəri Elnur Hidayətoğlu açıqlamasında bildirib ki, hazırda V.Alıyevin vəziyyəti kafidir, müalicəsi davam etdirilir.

"Hazırda vəziyyəti kafidir, boğulma əlamətləri yoxdur, soyuq suda qaldığından bədəndə hipotermiya müşahidə olunur. Bütün ilkin tibbi yardım göstərilib", - deyə E.Hidayətoğlu bildirib.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 4600**